ABŞ Azərbaycanın 5 erməni hərbçini qarşı tərəfə təhvil verməsini alqışlayıb

3

# "Dəmir yumruğ"un tarixi dəyişən 44 günü...

2



Səs
№ 164 (6605) 10 sentyabr 2022-ci il. Qiymәti 60 qәpik

# Azərbaycandan Ermənistana humanistlik dərsi



Şarl Mişel 5 erməni hərbçinin qarşı tərəfə təhvil verilməsini alqışlayıb

14



*Azərbaycan dövləti həmişə olduğu kimi, 44 günlük Vətən müharibəsində Zəfər qazanarkən də, eləcə də savaşdan sonrakı dönəmdə də humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirib. Son 17 ildə (2003-2020-ci illərdə) İlham Əliyev keçirdiyi bütün görüşlərdə səsləndirdiyi fikirlərlə, sərgilədiyi mövqe ilə bu prinsipə sadiqliyini sübuta yetirdi. Həmçinin beynəlxalq güclərin diqqətini illərlə görməzdən gəldikləri, bölgənin inkişafını əngəlləyən, sülh və sabitliyə təhlükə yaradan Qarabağ probleminə cəlb etdi.*

## Ərdoğandan Yunanıstana "İzmiri unutma!" xatırlatması



5

## DİQQƏT: İcbari Tibbi Sığorta kimlərə şamil edilir?



11

## 4 fəsil, 22 maddədən 6 fəsil 30 maddəyə doğru...

6

## Erməni vəhşiliyi: Laçındakı qəbiristanlıq talan edilib, qəbirlər qazılıb




## Ölümə aparan yol

Müasir dünyamız ən böyük problemlərindən biri olan narkomaniyadan hələ də əziyyət çəkir...



8



## Liz Trass - "dəmir ledi", yoxsa "yumşaq ser"

10

Liz Trass - "dəmir ledi", yoxsa "yumşaq ser" Böyük Britaniyanın xarici işlər naziri Liz Trass hakim Mühafizəkarlar Partiyasının yeni lideri oldu.



## Ancelina Breddən 250 milyon tələb edir

*Hollivud ulduzu Ancelina Coli keçmiş həyat yoldaşı Bred Pitti yenidən məhkəməyə verib.*

16

# "Dəmir yumruğ"un tarixi dəyişən 44 günü...

*Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı də xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 19 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Liderdir.*



## İlham Əliyev: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi"

Prezident İlham Əliyev xalqa müraciətində də bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz. Biz xalqımızla, ordumuzla fəxr edirik".



### "Dəmir yumruğ"un və Azərbaycan Ordusunun gücü sayəsində 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu

Bəli, cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Güney Qafqaz regionunda yeni reallıq bərqərar olsun və bu 44 gün müddətində terrorçu Ermənistanın "status-kvo"nu ürəyində qalsın. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də dəfələrəl bildiridi ki, "status-kvo" artıq yoxdur: "Status-kvo" deyilən məsələ yoxdur. Qurtardı getdi. "Status-kvo" belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orda, döyüş meydanında. "Status-kvo" yoxdur. Təmas xətti - yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq". Bəli, "Dəmir yumruq" birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğ"unun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü göstərdi. Ermənistan bu illər ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərməsinə baxmayaraq, Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu "Dəmir yumruğ"un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu. Bir sözlə, sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri ilə başa çatdı və 30 ilə yaxın 44 gün davam edən İkinci Vətən Müharibəsi işğala həmişəlik son qoydu. Güclü Silahlı Qüvvələrimizin əsgər və zabitləri, hərbçiləri Vətənimizin ərazi bütövlüyü naminə bir yumruq kimi birləşib, qəhrəmancasına vuruşaraq Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdilər.



### Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir

Dövlət başçısı işğaldan azad olunmuş torpaqlara səfərləri zamanı çıxışlarında bildirib ki, biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik: "Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir".Dövlət başçısı, həmçinin çıxışlarında işğalçı Ermənistana öz mesajlarını da səsləndirərək bir daha bildirib ki, otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur: "Bəs, haradadır bunların müzəffər ordusu? Haradadır yenilməz erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı".Bəli, Ermənistan ordusunun olmadığını və xırda bir səviyyədə olanlarının da odumuz tərəfindən məhv edildiyini bildirmişdir: "Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib". Bəli, bütün bu uğurlar, məhz ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev cənablarının qətiyyətli addımı, mövqeyi və nəhayət yürütdüyü "Dəmir yumruq" siyasəti dayanır. Bir sözlə, Prezidentimizin çıxışlarında, müsahibələrində, xalqa müraciətlərində dediyi kimi: "Bu yumruq elə-belə yumruq deyil, bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq".

### "Qarabağda cənnət yaradacağıq" - verilən bütün sözlər, vədlər yerinə yetirilməkdədir

Artıq qələbəmizin iki ili ərəfəsindəyik. Bu iki il ərzində işğaldan azad olunmuş torpaqlar quruculuq meydanına çevrilib. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi",- deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəs alan torpaqlarımıza hər səfəri zamanı Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək. Artıq Böyük Qayıdış başlayıb.

### "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır"

Bəli, 44 günlük qələbədən sonra Azərbaycan dövləti üçün prioritet məsələ işğaldan azad olunan ərazilərin bərpası və "Böyük Qayıdış"ın qısa müddətdə yüksək səviyyədə təmin edilməsidir. Ölkə rəhbərliyi "Böyük Qayıdış"ı yüksək səviyyədə həyata keçirmək əzmini dəfələrlə nümayiş etdirib. Hazırda işğaldan azad olunan ərazilərdə görülən önəmli və fundamental işlər Azərbaycanın bu istiqamətdəki qüdrətini bir daha göstərir. Belə ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər zamanı dövlət başçısı Qarabağımıza "Böyük Qayıdış"ın rəmzi olan, Zəngilanın Ağalı kəndinin "Ağıllı kənd" layihəsi ilə yenidən qurulmasının başa çatması ilə əlaqədər Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə demişdir ki, Müstəqillik Günü ərəfəsində burada olmalı idimi: "Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq".Bəli, budur, Ali Baş Komandanımızın diplomatik siyasətinin nəticəsi! Budur Güclü Ordumuzun gücü, budur mübariz, igid əsgərlərimizin rəşadəti! Bu nailiyyət və qələbələr həm də Xalq-Ordu Birliyinin, orduya olan inamın Qələbəsidir! Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, uğurlu siyasəti haqq işidir! Çünki Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ HÜSEYNOVA**

Təhlil

# “Konstruktiv siyasi partiyalar antimilli təzahürləri sərt tənqid etməlidir”

## *Prezident Administrasiyasında Azad Vətən Partiyasının sədri ilə görüş keçirilib*

***Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə yeni dövlət qeydiyyatına alınmış Azad Vətən Partiyasının sədri Akif Nağı arasında görüş keçirilib. S?A xəbər verir ki, bu barədə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildirilib.***



Qeyd olunub ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev partiyanın dövlət qeydiyyatına alınması münasibətilə böyük siyasi və ictimai fəaliyyət təcrübəsinə malik Akif Nağını təbrik edib və partiyaya fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı vurğunlanıb ki, son dövrdə legitim siyasi fəaliyyətin göstərilməsi üçün siyasi partiyalara yaradılmış şərait bilavasitə Prezident İlham Əliyevin dövlət siyasətinin demokratik kursunun təzahürüdür. Siyasi partiyaların artan fəallığı və nüfuzu ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşdırılması istiqamətində aparılan köklü siyasi islahatların nəticəsidir. Administrasiya rəsmisi tərəfindən xüsusi vurğulayıb ki, siyasi partiyaların inkişafına dövlət tərəfindən göstərilən dəstək, eyni zamanda, ölkədə dialoq mühitinin inkişafı siyasətinin davamı kimi qəbul olunmalıdır.

Siyasi münasibətlər müstəvisində demokratik və sağlam əməkdaşlığın qurulması nəticəsində son iki ildə Azad Vətən Partiyası da daxil olmaqla, 11 siyasi partiyanın dövlət qeydiyyatına alınması, siyasi partiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən ofislə təmin edilməsi, partiyaların qurultaylarının keçirilməsi və təsis sənədlərində edilmiş dəyişikliklərin dövlət qeydiyyatına alınması, habelə dövlətin bir sıra bu kimi digər demokratik təşəbbüsləri nəticəsində siyasi partiyalar ölkənin siyasi sisteminin nüfuzlu təsisatına çevriliblər.

Qeyd edilib ki, cəmiyyətin inkişafı naminə iqtidar-müxalifət münasibətlərinin konstruktiv əməkdaşlıq formatına transformasiyası prosesində siyasi partiyalar qabaqcıl mövqedən çıxış etməlidirlər. Siyasi partiyaların cəmiyyətin siyasi həyatında vacib rol oynadığını vurğulayan Administrasiya rəsmisi bildirib ki, işğaldan azad edilmiş ərazilərdə Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün siyasi partiyalar öz beynəlxalq əlaqələrindən geniş istifadə etməlidir.

Görüş zamanı ölkəmizdə həmrəylik mühitinin qorunmasında siyasi partiyaların müstəsna rolunu qeyd edən Ədalət Vəliyev xatırladıb ki, Vətən müharibəsi dövründə əldə edilmiş siyasi həmrəylik, siyasi partiyaların Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olması, bununla bağlı birgə bəyanat və müraciətlərin imzalanması iqtidar-müxalifət dialoqunun və ümummilli birliyinin təcəssümü idi.

Radikal siyasi meylilərin dövlətçiliyə və milli maraqlara təhdid kimi qiymətləndirilməsinin vacibliyini qeyd edən Administrasiyanın şöbə müdiri bildirib ki, sağlam və konstruktiv siyasi partiyalar daim dağıdıcı tendensiyalara qarşı çıxış etməli və antimilli təzahürləri sərt tənqid etməlidir.

Azad Vətən Partiyasının sədri Akif Nağı görüş üçün təşəkkürünü bildirib və ölkədə aparılan siyasi islahatları yüksək qiymətləndirib. Siyasi partiyaların fəaliyyəti üçün bütün imkanların dövlət tərəfindən təmin edildiyini diqqətə çatdıran partiya sədri siyasi fəaliyyətində dövlətin təməl prinsiplərini əsas tutacağını söyləyib. Yeni yaradılmış partiyanın sədri A.Nağı, həmçinin diqqətə çatdırıb ki, ümummilli konsensus və cəmiyyətin inkişafı naminə ölkədə sağlam siyasi mühitin qorunması rəhbərlik etdiyi partiyanın mütləq prioritetlərindən olacaq.

Xatırladaq ki, Azad Vətən Partiyasına dövlət qeydiyyatı haqqında şəhadətnamə bu il sentyabrın 6-da təqdim olunub.

# Maksim Şevçenko Ruben Vardanyanı cinayətkar adlandırdı

## *"Mümkündür ki, Vardanyan Qarabağ ermənilərinə görə təəssüf hisləri keçirsin, ancaq o Bakıya gedib soydaşlarına kömək etsəydi daha yaxşı olardı"*



***Rusiya vətəndaşlığından imtina edərək Qarabağa köçəcəyini iddia edən və bu vasitə ilə, yəni separatizmə dəstək göstərməsi yolu ilə Ermənistan hakimiyyətinə sahiblənəcəyini düşünən erməni milyarderi Ruben Vardanyan ətrafında maraqlı müşahizələr davam etməkdədir. Bu dəfə onun həmin xülyaları haqqında Rusiyanın tanınmış siyasi-ictimai xadimi, jurnalist Maksim Şevçenko fikir bildirib. Onun sözlərinə görə, Ruben Vardanyan sadəcə "boş çənə vuran birisidir" və onun Rusiya vətəndaşlığından imtina etməsi məhz Avropa sanksiyaları ilə qarşılaşmaması üçündür.***

### “Vardanyan istədiyi vaxt İstanbula gedə bilər, ancaq o, Bakıya da gedərək müəyyən dairələrlə görüşməklə öz yardımını təklif edə bilərdi”

Şevçenko eyni zamanda Vardanyanın Fransaya səfəri ilə də bağlı diqqət çəkən məqama toxunub. Onun sözlərinə görə, erməni milyarder Fransada yaşayan erməni diasporunun vəkillərini özünə tərəf cəlb etməyə çalışır. Həmçinin, Ruben Vardanyan Qarabağla bağlı bəyanatını və Rusiyadan imtinasını ona görə bəyan edib ki, Fransada leqallaşsa bilsin. Rusiyalı jurnalist hesab edir ki, bu cəhdlər sadəcə biznes maraqlarıdır, başqa heç nə...

Şevçenkoya görə, mümkündür ki, Vardanyan Qarabağ ermənilərinə görə təəssüf hisləri keçirsin, ancaq o Bakıya gedib soydaşlarına kömək etsəydi daha yaxşı olardı. O əlavə edib ki, Vardanyan istədiyi vaxt İstanbula gedə bilər, ancaq o, Bakıya da gedərək müəyyən dairələrlə görüşməklə öz yardımını təklif edə bilərdi.

### ”Vardanyan hansısa ”müqəddəs erməni torpaqlarından”, ”erməni sivilizasiyasının beşiyindən” danışmağa başladı, hansısa metafizik sərsəmləmələrə yol verir”

SİTAT: ”Düşünək ki, o Bakıya gedərək bunları deyə bilərdi: ” Gəlin Qarabağ ermənilərini ilə sizin münasibətinizi tənzimləməyinizə yardım edib. Mən münasibətlərin tənzimlənməsinə kömək edə bilərəm, mən Azərbaycanın erməni əhalisinə başa sala bilərəm ki, heç nədən qorxmaq lazım deyil. Bax bu real kömək olardı. Ancaq yox, o hansısa ”müqəddəs erməni torpaqlarından”, ”erməni sivilizasiyasının beşiyindən” danışmağa başladı, hansısa metafizik sərsəmləmələrə yol verir. Lap Paşinyanın 2018-ci ildə başlatdığı siyasi karyerasında ”Böyük Tiqran” və hansısa ”qədim köklər” haqqında bəhs etdiyi kimi. Bu hansı real situasiyaya aid ola bilşər? Heç bir!”

### ”Azərbaycan Prezidentinin və vitse-prezidentinin Qarabağı öz vətənləri hesab edən ermənilərə ünvanladıqları fikirləri də var”

Şevçenko həmçinin əlavə edib ki, müharibədə qalib gələn Azərbaycan var və bu ölkə Laçını da azad etdi və göstərdi ki, bənzər hallar eyni ruhda sonra da davam edə bilər. ”Müharibə istəməyən Azərbaycan rəhbərliyinin və xalqının xoş məramı var və onlara (Qarabağ ermənilərinə) tərəf əl uzadırlar ki, razılıqlara gəlinsin. Azərbaycan Prezidentinin və vitse-prezidentinin Qarabağı öz vətənləri hesab edən ermənilərə ünvanladıqları fikirləri də var: ”Buyurun, Azərbaycanda yaşayın. Ancaq onun qanunlarını da qəbul edin, erməni olaraq qalın, amma bu ölkənin qanunlarına tabe olun”. Vardanyan bu situasiyada öz yardımını göstərə bilərdi”.

### ”Vardanyan öz biznes maraqlarını erməni xalqının hesabına həll etmək istəyir və xalqı yeni metafizik əsaslarla növbəti konftontasiyaya doğru sürükləyir”

”Əgər sən Moskvanın mərkəzində biznesini idarə edirsənsə deməkki, Qod Nisanovla, Araz Aqalarovla da tanışsan, çətin ki, onlar bir-birinə qarşı qəzəblə baxsınlar”, deyən Şevşenkoya görə onlar daha çox bir-birləri ilə danışırlar, müzakirələr aparırlar: ”Mövcud məsələ ilə bağlı yardım etmək olardı, ancaq yox, Vardanyan öz biznes maraqlarını erməni xalqının hesabına həll etmək istəyir və xalqı yeni metafizik əsaslarla növbəti konftontasiyaya doğru sürükləyir. Mən hesab edirəm ki, bu cinayətkar bir mövqedir”, deyə Maksim Şevçenko sözlərini yekunlaşdırıb.

***Rövşən RƏSULOV***

## ABŞ Azərbaycanın 5 erməni hərbçini qarşı tərəfə təhvil verməsini alqışlayıb

***ABŞ Azərbaycanın 5 erməni hərbçini qarşı tərəfə təhvil verməsini alqışlayır. AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays bildirib.***




O qeyd edib: ”Biz erməni hərbçilərin evlərinə qayıtması ilə bağlı xəbərləri alqışlayırıq. Bu, Ermənistan və Azərbaycan arasında sülh prosesi üçün müsbət haldır. Ümid edirik ki, qalan bütün saxlanılanlar da tezliklə öz evlərinə qayıdacaq, Azərbaycan və Ermənistan etimad yaratmaq, mövcud fikir ayrılıqlarını həll etmək üçün addımlar atmağa davam edəcəklər.

# VIII qurultaydan gözləntilər nələrdir?




## Media kapitanları bu barədə fikirlərini açıqladılar

***Mətbuat Şurasının (MŞ) növbəti qurultayı sentyabrın 24-ü keçiriləcək. Bu barədə qərar MŞ İdarə Heyətinin dünən keçirilən iclasında verilib. Sentyabrın 24-də baş tutacaq qurultayda Mətbuat Şurasının yeni sədrinin seçiləcəyi gözlənilir. Bəs, VIII qurultayla bağlı media kapitanları nə düşünür?***

SİA media kapitanlarının fikirlərini öyrənməyə çalışıb:



**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev** bildirib ki, Mətbuat Şurası Azərbaycanda yarandığı gündən etibarən vacib funkasiyanı həyata keçirir: "Jurnalistlərin peşə davranış qaydalarının formalaşması media qanunvericiliyinin hazırlanması, praktikada tətbiqi, mətbuatla cəmiyyət arasındakı münasibətlərin məhkəməyə qədər tənzimlənməsi, jurnalistika peşəkarlığının inkişaf etdirilməsi, müasir mətbuat ənənələrinin daha da gücləndirilməsində Azərbaycan Mətbuat Şurası öz rolunu oynamağa çalışıb. Mətbuat Şurası fəaliyyət və missiyasının bundan sonra da davam etdirməlidir. Hamı bilir ki, bütün dünyada media sistemi genişlənib. Medianın yeni seqmentləri, xüsusilə sosial şəbəkələr və sosial media deyilən anlayışlar artıq geniş şəkildə öz yerini tutub. Mətbuat Şurası əgər, bu günə qədər əsasən çap medianın fəaliyyət istiqamətlərinin formalaşdırılması və qismən də onlayn medianın problemlərinin tənzimlənməsi və onların fəaliyyəti sahəsində meydana çıxan məsələlərin tənzimlənməsi ilə məşğul olurdusa, bundan sonrakı fəaliyyəti tamamilə başqa olacaq. Sosial media və şəbəkələrin qanunvercilik səviyyəsində tənzimlənməsi ilə bağlı çağırışlar var. Aydın məsələdir ki, bunların tənzimlənməsində, problemlərin həll edilməsində Mətbuat Şurası fəaliyyətinə ehtiyac var".



**"525-ci" qəzetin baş redaktoru Rəşad Məcid** qeyd edib ki, o, Mətbuat Şurası yarandıqdan onun İdarə Heyətinin üzvüdür: "Əlbəttə ki, Mətbuat Şurasının İdarə Heyətində gənc jurnalistlər olmalıdır. Yeni mediaya bələd gənclər mübarizə aparmalıdır. Hesab edirəm ki, həmişə olduğu kimi bu dəfə ki, qurultayda da çox demokratik və yüksək səviyyəli seçimlər ediləcək".



**"Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin** sözlərinə görə, Mətbuat Şurası ictimai tənzimləyici bir təsisat kimi Azərbaycan mediasına lazımdır: "Bu baxımdan onu qoruyub saxlamaq lazımdır. Bütövlükdə Mətbuat Şurasının qurultayından gözləntilərim yalnız qurultaydan sonrakı proseslər, eləcə də Mətbuat Şurasının Azərbaycan mediasında sağlamlaşma prosesinin aktiv bir iştirakçısına çevrilməkdən ibarətdir. İndidən yeni seçiləcək şəxsə uğurlar diləyirəm".



**"Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə** bildirib ki, Azərbaycan Mətbuat Şurasının VIII qurultayının keçirilməsi nizamnamənin tələbidir: "Nizamnaməyə görə, hər dörd ildən bir qurumun ali toplantısı keçirilməlidir. Mən bunu təqdir edirəm. Hər bir təşkilat nizamnamənin tələblərinə əməl etməlidir. Başda Əflatun Amaşov olmaqla Mətbuat Şurasının rəhbərliyinin indiyə qədərki fəaliyyətini müsbət qiymətləndirirəm. Hər bir qurumun yenilənməyə ehtiyacı var. VIII qurultayda Mətbuat Şurası rəhbərliyinə yeni simaların seçiləcəyinə inanıram. İdarə Heyətinə seçiləcək şəxslərin arasında gənc və perspektivli jurnalistlərin olması arzuediləndir".

**"Demokrat.az" saytının baş redaktoru Vasif Həsənli** qeyd edib ki, Azərbaycan Jurnalistlərinin növbəti Qurultayı media adına böyük hadisə hesab edilə bilər: "Təkcə ona görə yox ki, belə media cameəsi bir yerə toplaşıb, gələcək addımlara qərar verir, həm də bu qurultaydan böyük gözləntilər var. Çünki Azərbaycan mediası artıq yeni, fərqli mərhələyə qədəm qoyub.

2019-cu ilin sonlarından başlanan islahatlar yeni şərtlər yaradıb. Vətən müharibəsində apardığımız informasiya müharibəsi və postmünaqişə reallıqlarında informasiya sahəsində mübarizə aparmağın yeni tələbləri də bu şərtləri bir qədər də belə demək mümkünsə, sərtləşdirdi. İndi mediada yeni tələblər, yeni tendensiyalar yaranıb, bunu son iki ildəki istər dövlətin medianin inkişafı sahəsində atdığı addımlarda, istərsə media sahəsindəki dəyişikliklərdə görmək mümkündür.

Əksəriyyət etiraf edir ki, müsbətə doğru dəyişikliklər ciddi şəkildə nəzərə çarpır. Bu prosesdə əsas lokomotivin Medianın İnkişafı Agentliyi olduğu fikri ilə də hər kəs razılaşır. Lakin Mətbuat Şurasından da gözləntilər böyükdür, çünki MEDİA dövlətin dəstəyinə vasitəçilik edirsə, o cümlədən, medianın peşəkarlaşması istiqamətində əlindən gələni edirsə, Mətbuat Şurası bu prosesdə axsayır. Halbuki, bu prosesin önündə Mətbuat Şurası getməlidir. Təəssüf ki, bunun belə olduğunu demək çətindir.

Fikrimcə, Mətbuat Şurası fəaliyyətini Medianın İnkişafı Agentliyinin həyata keçirdiyi islahatlara adekvat qurmalıdır. Bunun da yolu yenilənmədən keçir. Dövlət media islahatlarının məhz yenilənmə nəticəsində effekt verdiyi təcrübəsi ortadadır, Mətbuat Şurası da bu təcrübədən istifadə etməlidir. Qeyd etdiyim kimi, media sahəsində də yeni çağırışlar, yeni tendensiyalar yaranıb, Mətbuat Şurasında bu çağırışlara cavab verən gənc, çevik, nüfuzlu və peşəkar insanlara ehtiyac var. Bu olduğu təqdirdə Mətbuat Şurasının fəaliyyətinin mövcud reallıqlara adekvat olacağını düşünürəm.

Etiraf etməliyik ki, Mətbuat Şurasının nüfuzu lazımi səviyyədə deyil və bu, medianın inkişafında mühüm rol oynamalı olan Şuranı proseslərə daim geridən boylanmasına gətirib çıxarır. Sadə dillə desək, Şuranın sözü, qərarı o qədər də ciddiyə alınmır. Bunu yenilənmə, gəncləşmə, müasir çağırışlara cavab verən heyətlə həll etmək olar. Bu baxımdan, növbəti qurultaydan gözləntilərimiz çoxdur və düşünürük ki, Mətbuat Şurasında da yeni dövrün başlanmasının zamanı çatıb".

***Arzu Qurbanlı***

## "Moskva yüksək səviyyəli üçtərəfli bəyanatların icrasına çox böyük əhəmiyyət verir"



Rusiya tərəfi yüksək səviyyəli üçtərəfli bəyanatların icrasına, o cümlədən Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılmasına, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyasına, Bakı və Yerevan arasında vətəndaş cəmiyyətləri xətti ilə təmasların möhkəmlənməsinə çox böyük əhəmiyyət verir. AZ?RTAC xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada brifinqdə bildirib.

Diplomat qeyd edib ki, Moskva Rusiya, Azərbaycan və Ermənistan liderlərinin razılaşmalarının icrası üçün bütün səviyyələrdə tam həcmdə səy göstərir. "Bu, Cənubi Qafqazda möhkəm sülhün formalaşması üçün şərtləri təmin edir və təkcə region dövlətlərinin deyil, o cümlədən onların qonşularının da maraqlarına cavab verir", - deyə RF XİN rəsmisi bildirib.

Azərbaycan və Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu ildə yüksək səviyyəli bir sıra səfərlərin, regionlararası forumun keçirilməsinin planlaşdırıldığını vurğulayan M.Zaxarova, həmçinin əlavə edib ki, Moskva Rusiya Federasiyasının subyektlərinin bu formatlarda iştirakını yüksək dəyərləndirir.

# Ərdoğandan Yunanıstana "İzmiri unutma!" xatırlatması



## Yaxud, Yunanıstan hansı nəticələri çıxarmalıdır?





Artıq uzun müddətdir ki, Yunanıstanın apardığı siyasətin birbaşa Türkiyənin dövlət maraqlarına xələl vurması mümkünlükləri ətrafında fikirlər səsləndirilməkdədir. Lakin rəsmi Afina bu məsələdə bir həqiqəti unudur ki, nə Türkiyə əvvəlki Türkiyə kimi deyil, nə də Yunanıstanın istər siyasi, istər hərbi, istərsə də iqtisadi potensialı Türkiyənin potensialı qarşısında yetərli qədər güc faktoru kimi sayıla bilməz. Həmin reallıqları sübut edən amillər isə kifayət qədərdir. Və eləcə də, bugünlərdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın həm tarixi faktlarla toxunması, həm də mövcud siyasi rakursdan irəli sürdüyü ultimativ xarakterli bəyanatları da diqqət çəkməyə bilməz. Məsələn, qardaş ölkənin dövlət başçısı Samsun şəhərində "Teknofest Karadeniz" Aerokosmik və Texnologiya Festivalında çıxışı zamanı sərt və qətiyyətli xəbərdarlığını etdi. O, "Ey yunan, tarixə bax, tarixə qayıt, çox irəli getsən, bədəli ağır olacaq. Yunanıstana bir cümləmiz var: İzmiri unutma!", deyə vurğulayıb.

### Rəcəb Tayyib Ərdoğan sübut edir ki, həqiqətən də dünya beşdən ibarət deyil

Ərdoğan Nazirlər Kabinetinin Ankarada keçirilən iclasının yekunlarına dair çıxışında da bildirib ki, Yunanıstan nə siyasi, iqtisadi, nə də hərbi baxımdan Türkiyə ilə bərabərdir: "Fürsətdən istifadə edərək, son zamanlar ölkəmizə qarşı təzyiq və təkəbbürünü gücləndirən Yunanıstanı bir daha xatırlatmaq istəyirəm. Yunanıstan siyasi, iqtisadi və hərbi münasibətlərdə bizimlə bərabər deyil, ona görə də düşmənimiz deyil".

Onu da xatırladaq ki, Türkiyənin prezidenti ölkənin maraqlarını təmin etməklə yanaşı, həm də dünyaya yeni mesajlarını ötürməkdədir. Daha dəqiq desək, istər Avropa, istər Qafqaz, istər Afrika, Asiya və Latın Amerikası ölkələri, istərsə də Balkan ölkələrində söz sahibi qismində çıxış etməyə müyəssər olan və bu siyasətini şaxələndirən Rəcəb Tayyib Ərdoğan sübut edir ki, həqiqətən də dünya beşdən ibarət deyil və bu gün dünyada yeni reallıqlar öz sözünü deməkdədir. Həmin reallıqların önündə gedən ölkələrdən birincisi isə Türkiyə Cümhuriyyətidir.

Əbəs deyil ki, Ərdoğan Balkan ölkələrinə səfəri öncəsi "Türkiyə son zamanlar gərginliyin artdığı bu regionda sülhün, əmin-amanlığın, inkişafın və ədalətin təmsilçisi kimi üzərinə düşən öhdəlikləri yerinə yetirməkdə davam edir" bəyanatını önə sürdü və bir daha dünyəvi gücə çevrildiyini təsdiqlədi.

Ərdoğan: "Türkiyə güclü olmalı və gücünü daim artırmalıdır, əks halda, ölkəmizi fəlakətlərə sürükləmək istəyənlərə fürsət vermişik, bunun nümunələrini ətrafımızda dəfələrlə görmüşük"

Ərdoğan vurğulayıb ki, bu görüşlərdə Türkiyə nümayəndə heyəti rəsmi Ankaranın Orta və Şərqi Asiyada hüquq və maraqlarının inkişaf etdirmək yollarını axtaracaq.

"Hər fürsətdə vurğuladığımız və təkrar etdiyimiz kimi, Türkiyə güclü olmalı və gücünü daim artırmalıdır, əks halda, ölkəmizi fəlakətlərə sürükləmək istəyənlərə fürsət vermişik, bunun nümunələrini ətrafımızda dəfələrlə görmüşük", Ərdoğan vurğulayıb.

Məhz belə bir şəraitdə "Yunanıstan Türkiyəyə necə münasibət göstərəcəyi barədə ətraflı düşünəcək. Əks halda hər dəfə dediyim kimi, bir gecə qəfil gedə bilərik", bəyanatı ilə əslində Ərdoğan qətiyyətli fikrini önə sürmüş olub. SİTAT: "Son həftələr çıxışlarımda Yunanıstanla bağlı açıqlamalarım, yəqin ki, diqqətinizi çəkib. Müdafiə Nazirliyimiz lazımi müzakirələri aparır. Yuanıstan baş verənlərin fərqindədir və buna görə hərəkətlərini tənzimləməyə başlayıb".

### Türkiyə Avropa İttifaqının 25 üzv ölkəsinə, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə, NATO-nun baş katibi Yens Stoltenberqə, BMT-nin baş katibi Antonio Quterreşə göndərilib

Onu da xatırladaq ki, artıq Türkiyə Yunanıstanla bağlı beynəlxalq təşkilatlara məktub ünvanlayıb. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun imzaladığı məktubda Yunanıstanla Egey dənizindəki mübahisəli məsələlərdən bəhs edilir.

Məktubda Egey dənizində ərazi sularının və milli hava məkanının eni, kontinental şelf və ərazi sularının məhdudlaşdırılması, şərq adalarının qeyri-hərbi statusunun pozulması kimi bir sıra problemlərin olduğu bildirilir. Həmçinin Egey dənizində Yunanıstanın suverenliyinə daxil olmayan adalar və qayaların olduğu vurğulanır.

Sənəd Avropa İttifaqının 25 üzv ölkəsinə, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə, NATO-nun baş katibi Yens Stoltenberqə, BMT-nin baş katibi Antonio Quterreşə göndərilib. Türkiyə hesab edir ki, Egey dənizi ilə bağlı məsələlər iki ölkənin əsas hüquq və qanuni maraqlarının qarşılıqlı tanınması ilə beynəlxalq hüquq çərçivəsində həll edilə bilər.

Lakin bu da son deyil. Əldə olunan dəlillərdən biri də Yunanıstanda yerləşən və Türkiyənin ərazi bütövlüyünə və suverenliyinə təhdid yaradan, habelə terror təhlükəsi saçan kürd terror qruplaşmalarıdır.

### Türkiyədə terror siyahısına salınmış PKK, DHKP-C, MLKP və MKP-nin Afina yaxınlığında mənzil qərargahları fəaliyyət göstərir!

Nüfuzlu "Türk klubü" teleqram kanalının yazdığına görə, Yunanıstan öz ərazisində yüzlərlə PKK və s. terror qollarına himayədarlıq edir, eləcə də onların qruplaşmalarına təlimlər keçir. Həmin düşərgələrdən biri Lavrionda yerləşir. Məlum olub ki, 1985-ci ildə qaçqınlar düşərgəsi adı altında açılan həmin ərazidə hazırkı məqamda yüzlərlə terrorçular yaşamaqdadırlar. Düşərgənin iki ayrı-ayrı seksiyalardan ibarət olduğun bildirilir. Birinci seksiya Afinadadır və 4 ayrı-ayrı bloklardan və 80 mənzildən ibarətdir. Düşərgənin ərazisi hündür divarlarla əhatə olunub. Təşkilat üzvləri davamlı olaraq təhlükəsizlik tədbirləri görürlər və silahlı mühafizə qurublar.

Əsas düşərgədən 1,5 km aralı olan ikinci seksiya isə konteyner və çadırlardan ibarətdir. Düşərgədə Türkiyədə terror siyahısına salınmış PKK, DHKP-C, MLKP və MKP üzvləri yaşayırlar. Onların sayı davamlı olaraq 250 və 500 nəfər arasında dəyişir. Təlimlər isə 6 ay davam edir. Əsasən PKK-nın nəzarəti altında olan düşərgədə hər bir terror təşkilatı qolunun ayrı-ayrı otaqları, habelə həmin təşkilatların simvolları yerləşdirilib. Hər otaqda 4-8 terrorçunun yaşadığı bildirilir. Maskirovka üçün isə düşərgədə 4-5 uşaqlı ailələr yaşayırlar.



Düşərgənin əsas binasında ideoloji hazırlıq üçün zallar fəaliyyət göstərir. Orada sabotaj, partlayıcı maddələrin və bombaların hazırlanması üzrə təlimlər aparılır. Və ən əsası - düşərgənin maliyyəsi PKK-nın Avropa qolu, Avropa İttifaqı institutları və Yunanıstan dövləti tərəfindən ödənilir.

Beləliklə, göründüyü kimi hədəf Türkiyədir və çox yəqin ki, bu faktlar Türkiyənin müvafiq istihbarat (xarici kəşfiyyat) qurumları tərəfindən araşdırılıb. Söz yox ki, əgər bütün bunlar Yunanıstanın ərazisindədirsə, rəsmi Ankara həmin addımı düşmən mövqeyi kimi dəyərləndirir və bu baxımdan, artıq Ərdoğanın sərt bəyanatlar verməsi zamanının çatması da məhz belə deməyə zəmin yaradır ki, Ankara əsla geri çəkilməyəcək, əksinə öz qətiyyətli sözünü deməyə, hətta daha qəti addımlar atmağa davam edəcək. Təbii ki, Yunanıstan da bütün bunlardan bir nəticə hasil etməlidir...

**Rövşən RƏSULOV**

SİYASİ RAKURS-ÖZƏL

# 4 fəsil, 22 maddədən 6 fəsil 30 maddəyə doğru...




## Siyasi partiyalar haqqında yeni qanun layihəsi - vəd edilənlər nələrdir?

***Məlum olduğu kimi, Azərbaycan Milli Məclisi "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini müzakirəyə çıxarıb və həmin layihədə bir sıra təkliflər, ideyalar, eləcə də digər təşəbbüslər aktual olaraq siyasi gündəmi əhatə etməkdədir.***

Xatırladaq ki, siyasi partiyalar haqqında mövcud qanun 1992-ci ilin iyununda Azərbaycan Respublikası Ali Sovetinin sədri olduğu vaxtda qəbul edilib, sonrakı illərdə bu qanuna müəyyən dəyişikliklər edilib, əlavələr, yaxud ixtisarlar aparılıb. Eyni zamanda, yeni qanun layihəsi qəbul edilkdikdən, yaxud qüvvəyə mindikdən sonra köhnə qanun qüvvədən düşəcək.

Beləliklə, bu faktor həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Azərbaycanda qanunvericilik bazası daim təkmilləşdirilir. Bu, həm də göstərir ki, qanunvericilik hərəkətliliyi müasir siyasi-ictimai dövrün tələblərinin aparıcı tərkib hissələrindən biridir. Ötən dövr ərzində qanunvericilik prosesinə nəzər salsaq, bunu aydın şəkildə görərik. Hazırkı dövrdə müzakirəyə təqdim olunan növbəti layihə - "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi də həmin amilləri ehtiva etməkdədir.

### Ölkə ictimaiyyətində siyasiləşmə mühitinin də artacağını ehtimal etmək olar

Qeyd edək ki, hazırkı qanun dörd fəsil və 22 maddədən ibarətdir. Yeni qanun layihəsində isə siyasi partiyalarla bağlı məsələlərin 6 fəsil və 30 maddə ilə tənzimlənməsi irəli sürülüb. Bəs yeni qanun layihəsində hansı təkliflər və ideyalar irəli sürülb?

Belə ki, qanun layihəsində, əsasən siyasi partiyaların yaradılması, qeydiyyata alınması və ləğvi qaydalarında dəyişikliklər, siyasi partiyanın fəaliyyətinə nəzarət təklif olunur. O cümlədən, layihədə siyasi partiyaların qeydiyyata alınması üçün tələb edilən minimum üzvlərin sayının 10 minə qaldırılması təklif olunur. Hazırda isə həmin tələb min nəfəri təşkil edir. Qeyd edək ki, həmin rəqəm 10 minə çatdırılarsa və partiyaların sayı çox olarsa ölkə ictimaiyyətində siyasiləşmə mühitinin də artacağını ehtimal etmək olar.

Eyni zamanda, 2 dəfə ardıcıl olaraq, parlament, prezident və ya bələdiyyə seçkilərində iştirak etməyən partiyaların dövlət qeydiyyatı ləğv ediləcək. Yeni yeni qanun layihəsində bu təklif də göstərilib. Mövcud qanunda isə partiyalar qarşısında belə bir öhdəlik mövcud deyildir. Həmçinin, layihədə partiyaların seçkini, yaxud seçkiləri davamlı halda boykot etmə hüquqları barədə hər hansı müddəa göstərilməyib.

### Siyasi partiyalar necə və hansı üsullarla təsis ediləcək?

Hazırda mövcud olan qanuna görə, hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq hüququna malikdir və təklif edilən yeni layihədə də bu müddəa saxlanır, amma bəzi düzəlişlərlə. Belə ki, siyasi partiya yaratmaq, təşkilat təsis etmək istəyən şəxs son 20 ildə Azərbaycanda daimi yaşamalı, bunu təsdiq edən sənədlərə sahib olmalıdır. Əlavə olaraq, siyasi partiya yaradılarkən ən azı 200 təsisçisi olmalı və həmin şəxslər tam fəaliyyət qabiliyyətli olmalıdırlar. Layihədə göstərilir ki, siyasi partiya təsisçiləri təsis yığıncağı keçirərək partiyanın nizamnamə və proqramını qəbul etdikdən sonra öz aralarından təmsilçi seçirlər. Yığıncaq zamanı əldə olunan nəticələr protokolla rəsmiləşdirildikdən sonra səlahiyyətli şəxs ərizə ilə müvafiq icra hakimiyyəti orqanına müraciət edərək həmin sənədləri 30 gün müddətinə təqdim edir. Dövlət qurumu da 30 gün müddətində həmin partiyanın tələblərə uyğunluğunu yoxlayır. Nəzərdə tutulmuş məlumat müvafiq dövlət qurumuna daxil olduğu tarixdən 90 gün müddətində siyasi partiyanın səlahiyyətli şəxsi üzvlərin sayının təmin edilməsi üçün tədbirlər görür və onların reyestrini tərtib edir.

### Reyestrə hansı məlumatlar yerləşdiriləcək?

Yeni layihədə göstərilir ki, siyasi partiya üzvlərinin reyestrini adı, soyadı, atasının adı, həmçinin fərdi identifikasiya nömrəsi, doğulduğu tarix, qeydiyyat ünvanı, qeydiyyatda olduğu partiyanın yerli təşkilatı (olduğu halda) və əlaqə telefon nömrəsi göstərilməklə aparır. Təklif edilən dəyişikliyə əsasən, dövlət qurumu elektron informasiya ehtiyatlarından istifadə etməklə siyasi partiya üzvlərinin reyestrində olan məlumatlarının ildə azı iki dəfə nəzərdən keçirəcək. Siyasi partiya da üzvlərinin reyestrində baş vermiş sonrakı dəyişikliklər barədə ildə iki dəfə (yanvar ayının 15-dək və iyul ayının 15-dək) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat təqdim etməlidir.

### Partiyalar qarşısında qoyulacaq tələblər nədən ibarət olacaq?

İlkin tələb: qanun qəbul edilənədək dövlət qeydiyyatına alınmış siyasi partiya bu qanunun qüvvəyə mindiyi tarixdən etibarən 90 gün müddətində üzvlərinin sayının 10 minə çatdırılması üçün tədbirlər görməlidir. Paralel olaraq onların reyestrini tərtib edərək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma təqdim etməlidir. Əgər hansısa çatışmazlıqlar aşkar edilərsə və siyasi partiya qanunda göstərilən müddətdə bunu aradan qaldırmazsa, onda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyanın ləğvi barədə apellyasiya məhkəməsində iddia qaldıracaq. Yəni bu kimi məsələlər də layihədə göstərilib.

### Siyasi partiyaların fəaliyyətinə nəzarət mexanizmi: necə olacaq?

Söz yox ki, müzakirəyə çıxarılmış yeni qanun layihəsi siyasi partiyaların fəaliyyətinə nəzarət mexanizmlərini də ehtiva edir. Belə ki, siyasi partiyanın fəaliyyətinin qanunvericiliyin və nizamnaməsinin tələblərinə uyğunluğuna nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum həyata keçirəcək. Sözügedən qurum siyasi partiyanın fəaliyyətinin Azərbaycanın normativ hüquqi aktlarına və nizamnaməsinə uyğunluğunu öyrənəcək, partiyanın yaradılması zamanı yol verilən hüquq pozuntularını araşdıracaq və hətta siyasi partiyanın fəaliyyətinin dayandırılması və onun ləğvi barədə məhkəmədə iddia qaldıracaq. Eyni zamanda, nəzarətedici qurum partiyanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxacaq və mediada yayılan məlumatları nəzərdən keçirəcək.

### Hansı kateqoriyalı şəxslər partiyaya üzv seçilə bilməzlər?

Yeni qanun layihəsində göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər siyasi partiyanın üzvü ola bilməzlər. Habelə, hazırkı qanunda bu kateqoriyadan olanlardan ianə almaq qadağan edilsə də, üzvlüklə bağlı məhdudlaşdırıcı müddəa mövcud deyil.

### Siyasi partiyaların rəmzlərinin müəyyənləşdirilməsi...

Layihəyə əsasən, siyasi partiyanın adı olmalı və onun adında "partiya" sözü mütləq şəkildə göstərilməlidir. Bundan əlavə, siyasi partiyanın adının qısaldılmış forması, həmçinin siyasi partiyanın rəmzləri (bayraq, emblem və s.) ola bilər. Layihədə o da göstərilir ki, siyasi partiyanın adı, qısaldılmış adı və rəmzləri dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və ya ləğv edilmiş hüquqi şəxslərin, o cümlədən digər siyasi partiyanın adından, adının qısaldılmış formasından və rəmzlərindən fərqlənməlidir, qanunla qorunan əmtəə nişanlarını təqlid etməməlidir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı siyasi partiyanın bayrağı ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, siyasi partiyanın bayrağının ölçüsü Azərbaycan Respublikası Dövlət Bayrağının ölçüsündən böyük ola bilməz!

### Partiyaların maliyyələşməsi...

Yeni qanun layihəsi siyasi partiyalara Azərbaycandan kənarda istənilən növ (hər növ maliyyə təşkilatları daxil olmaqla) hesab açmağı qadağan edəcək. O cümlədən, siyasi partiya pul vəsaitini yalnız milli valyutada və nağdsız qaydada bank hesabına köçürmə yolu ilə qəbul edə biləcək. İanələr isə pul vəsaiti, əmlak və ya xidmət şəklində qəbul edilə bilər.

Hazırda bir sual da ictimai rəyi maraqlandırmaqdadır ki, bəs qeydə alınmayan və ya qeydiyyatı ləğv edilən siyasi partiyanın fəaliyyətləri necə olacaq? Artıq yeni qanun layihəsinə görə bu kimi siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilməyəcək. O cümlədən, siyasi partiyanın fəaliyyətinin dayandırıldığı dövrdə və ya ləğvinin dövlət qeydiyyatına alındığı halda onun hər hansı formada fəaliyyət göstərməsi, partiya orqanlarının və üzvlərinin siyasi partiyanın adından çıxış etməsi və ya fəaliyyət göstərməsi, toplantıların keçirilməsi, maliyyə əməliyyatlarının aparılması, yaxud onun fəaliyyətinin qanunsuz təşkilində və ya işində iştirakı qadağan edilir.

Layihədə daha bir məqam da göstərilir ki, siyasi partiyanın səlahiyyət müddəti bitmiş orqanlarının partiyanın fəaliyyəti ilə əlaqədar hər hansı hərəkətlər, o cümlədən qərarlar qəbul etməsi və ya sənədlərin imzalanması qadağandır.

### Qanun layihəsinin hazırlanmasında 39 siyasi partiyanın təklif və rəyləri dinlənilib

Əsas diqqət çəkilən məqamlardan biri də budur ki, yeni qanun layihəsi demokratik dəyərlər üzərində işlənilib. Belə ki, ölkəmizdə fəaliyyət göstərən 39 siyasi partiya bu layihəyə öz təkliflərini verib, eyni zamanda, qanun layihəsi ilə bağlı ictimai dinləmələr təşkil olunub. Parlamentin saytında da ictimai dinləmələrlə bağlı məlumat yerləşdirilib. Bu addımın özü ali qanunverici orqanın prosesə demokratik yanaşmasının və bütün maraqlı tərəflərin layihənin müzakirəsinə cəlb olunması istəyinin göstəricisidir. Eyni zamanda, digər sahələrdə olduğu kimi, Siyasi Partiyalar haqqında Qanunda da əlavə və dəyişikliklərə ehtiyac var və mövcud demokratik mühit, eyni zamanda qlobal inkişaf reallığı da həmin faktoru ictimai gündəmə və müzakirələrə çıxarıb.

***Rövşən RƏSULOV***

ANALİTİK-AKTUAL

# İnsan orqanının bağışlanmasına cəmiyyətdə və dində NECƏ BAXILIR?




***Bildiyimiz kimi donor və donorçuluqla bağlı günümüzdə hələ də problemlər qalmaqdadır. Bəs, bu problemlər nədən qaynaqlanır? Donor mafiyalarının qarşısı necə alınmalıdır? Dində bu məsələlərə necə baxılır? SİA mövzu ilə bağlı sorğu keçirərək həkim, ekspert və din xadiminin fikirlərini öyrənib.***





**Ümumi cərrah, transplantoloq Mircəlal Kazımi:** ”Orqan transplantasiya əməliyyatlarının icrası üçün xəstədən əlavə olaraq onların donorları olmalıdır. Orqan çatışmazlığından əziyyət çəkən xəstənin qohumlarından biri donor olmalıdır ki, transplantasiya əməliyyatı həyata keçirilə bilsin.

Dünyada hal-hazırda icra olunan orqan transplantasiyasında donorlar 2 qrupa bölünürlər: canlı qohumlardan alınan orqanlar və meyiddən alınan orqan transplantasiyası.

Təəssüflər olsun ki, hal-hazırda ölkəmizdə yalnız canlı qohumlardan istifadə edərək orqan transplantasiyasını həyata keçiririk. Amma yanvar ayının 1-dən cənab Prezident İlham Əliyev tərəfindən imzalanan ”İnsan orqan toxumalarının transplantasiyası haqqında yenilənmiş” qanunda meyid orqanlarının istifadə olunmasına geniş şəkildə icazə verildi.

Hal-hazırda hökumət və Səhiyyə Nazirliyi meyid orqanlarından istifadə haqqında yeni qərar və qaydaların icrası barədə işlər aparır. Orqan tranplantasiya koordinasiya mərkəzi də yaradılıb. İnanıram ki, yaxın gələcəkdə meyid orqanlarından da istifadə edərək orqan transplantasiyası əməliyyatlarını icra edəcəyik.

Biz böyrək və qaraciyər transplantasiya əməliyyatları icra edirik. Komandamız tərəfindən 1500-ə yaxın insan üzərində böyrək və qaraciyər transplantasiya əməliyyatı icra etmişik.

Onu da nəzərinizə çatdırım ki, Azərbaycanda mənim rəhbərliyim altında 2008-ci ilin 12 dekabrında Cənubi Qafqazda və ölkəmizdə ilk dəfə canlıdan-canlıya qaraciyər transplantasiya əməliyyatı icra olundu. Bu tarixdən etibarən Azərbaycanda orqan transplantasiyasının intibah dövrü başlandı.

Ailə tərəfindən qan qrupu uyğun olan xəstə olduğu zaman həmin şəxs bizə müraciət edir. Donorun ”Mən böyrəyimin birini, yaxud qaraciyərimin bir hissəsini verirəm” deməsi işin təqribi 15-20 faizi hesab olunur. Bundan sonra isə onun müayinələri başlanılır. Donorun müayinəsi aparıldıqdan sonra hər şey uyğun gələrsə, yəni qan analizləri, kompyuter tomoqrafiyası, toxuma uyğunluğu və orqanın həcmi uyğun gəldikdən sonra onun donor olmağına qərar verilir. Bu təqdirdə əməliyyat icra oluna bilər.

Təbii ki, bizim istəyimiz ondan ibarət olardı ki, donor əməliyyatlarında donor riskə atılmasın. Yəni, canlı donordan çox istifadə olunmasın. Daha çox meyid orqanlarına önəm verilsin. Lakin canlı donordan istifadə bütün dünyada tətbiq olunur. Buna əngəl və əks göstərişlər də yoxdur. Professional, təcrübəli komanda tərəfindən icra olunduğu zaman fəsad olma ehtimalı sıfıra bərabər olur.

Donorlar sözün əsl mənasında ”təpədən dırnağa qədər” müayinə olunub yoxlanılır. Müayinələr nəticəsində də donor olmasına qərar verilir. Yəni, tibbi cəhətdən tam sağlam olan insan donor ola bilər. Aparılan araşdırmalar onu göstərri ki, donorların gələcək həyatları normal insnalara nisbətdə daha yaxşı olur. Çünki onlar mütəmadi olaraq yoxlanışdan və müayinədən keçmiş insanlar olurlar.

Donor olan şəxsin verdiyi qaraciyərin bir hissəsi ay yarım ərzində bərpa olaraq yerinə qayıdır. Böyrək donoru isə bir böyrəyini verdikdən sonra qalan böyrək geridə qalan orqanizmin bütün funksiyasını öz üzərinə götürərək normal həyat fəaliyyətinə davam edir”.

## SORĞU



**Analitik ekspert Aydın Xan Əbilov:** ”İllər boyu donor və donorçuluqla bağlı Azərbaycanda çox kəskin ictimai diskussiyalar gedib. Azərbaycan mənəviyyatında, mental dəyərlərində və xalqın düşüncəsində ölmüş insanın daxili və xarici orqanlarının o əzalara ehtiyacı olan şəxslərə köçürülməsi ilə bağlı problem var idi. Bu məsələ cəmiyyətdə dəfələrlə etirazlara səbəb olmuşdu. Hətta hər hansı bir cinayət hadisəsi zamanı öldürülmüş şəxsin özünün belə yarılmasına da Azərbaycan insanı qəti etirazını bildirirdi.

Son vaxtlar dünyadan gələn ən yaxşı tendensiyalardan biri də insanların qəfl ölüm zamanı daxili və xarici orqanlarının ehtiyacı olan insanlara köçürülməsi ilə bağlı vəsiyyət etməsidir. Belə aksiyalar dünyada həm də qara donor alveri və donor mafiyalarının əməllərinə qarşı sivil mübarizə metodudur. Donor alveri dünyanın hər bir yerində çox geniş yayılıb. Xüsusilə az inkişaf etmiş ölkələrdə donor mafiyası çox geniş yayılıb. Hətta ”donor turizmi” deyilən bir turizm də var. İndi donor mafiyalarının işləri asanlaşıb. Onlar sosial şəbəkələrdən istifadə etməklə öz fəaliyyətlərini qururlar.

Azərbaycan torpaqları işğal altında olan zaman əsir götürülmüş azərbaycanlıların əzalarının Fransa və Avropa ölkələrinə satılması ilə bağlı məlumatlar var”.



**Azərbaycan İlahiyyat İnustutunun müəllimi, din xadimi Hacı İbrahim Quliyev:** ”Orqanın köçürülməsi müasir tibb elminin nailiyyətlərindən biridir. İstər ölkəmizdə, istərsə də dünyanın müxtəlif ölkələrində müəyyən orqanların köçürülməsi bir çox insanlara həyat vermiş və ya onların həyat keyfiyyətini yüksəltmişdir. Buna görə də orqanın köçürülməsi ilə bağlı müasir tibb elmində yeni qayda-qanunlar təsbit edilmişdir.

Heç şübhə yoxdur ki, məsələ dini aspektdən də təhlil edilmiş, müsəlman dünyasının ən görkəmli alimləri məsələyə öz münasibətlərini bildirmişlər. Lakin bunu da qeyd etmək lazımdır ki, orqan köçürülməsi məsələsi yeni olduğundan bu haqda nə Qurani-Kərimdə, nə də hədis mənbələrində məlumat vardır. Buna görə də məsələyə münasibət yalnız müasir dövrün müsəlman alimlərinin rəyləri, verdikləri fitvalar əsasında təhlil edilir.

Mövzu ilə bağlı İslam alimlərinin gəldikləri qənaətlər aşağıdakılardan ibarətdir:

Birincisi, orqanı götürülən şəxsin ölmüş olması lazımdır.

İkincisi, ölmüş insanın sağ ikən yazılı və ya şifahi razılığı, yaxud da onun yaxınlarının razılığı olmalıdır.

Üçüncüsü, orqan satış məqsədi ilə olmamalıdır.

Dördüncüsü, orqan köçürülən şəxsin də razılığı olmalıdır.

Beşincisi, əgər insan sağ ikən onun bir əzasının kəsilib digər bir şəxsə köçürülməsinə razı olsa belə, bu işi icra etmək (məsələn, bir qolunun, ayağının və ya gözünün köçürülməsi kimi) onun özünə ciddi zərər gətirərsə, icazəli deyil. Amma əgər şəxsin özünə ciddi zərər gətirməzsə, icazəlidir.

Altıncısı, heyvanların əzasının insana köçürülməsi icazəlidir. O heyvan murdar heyvan olsa belə (məsələn, donuz kimi) onun hər hansı bir üzvü insana köçürülə bilər və köçürülən üzv pakdır. Əlbəttə, bundan başqa digər bəzi şərtlər də vardır”.

***Ayşən Vəli***

# Ölümə aparan yol



***Müasir dünyamız ən böyük problemlərindən biri olan narkomaniyadan hələ də əziyyət çəkir. Vaxtilə bu problemə diqqət yetirilməməsi, ictimai təhlükəliliyinin lazımi dərəcədə qiymətləndirilməməsi nəticəsində narkomaniya yoluxucu xəstəlik kimi insanlar, xüsusən də gənclər arasında yayılmış, öz ərazisini genişləndirmiş, yaşadığımız dünyanı dağıtmaq səviyyəsinə qədər gəlib çıxmışdır.***

Nəşə "xərçəngin dərmanıdır", "yaradıcılığı artırır", " Adamın başını işlədir", "asılılıq yaratmır" kimi sözlərlə insanları narkotikə qurşandırır və ya narkotiklə bağlı yaxşı təəsürat yaratmaqla şəxslərin gözündə narkotik vasitələrin istifadəsini adiləşdirirlər.

Narkomaniyanın (yunan sözüdür, narke - yuxu, bihuşluq, mania - cəzb etmə, ağılsızlıq) etiologiyası və məişətə daxil olması tarixi ilə maraqlansaq eramızdan neçə minillik qabağa gedib çıxarıq. Narkotik maddələrin xeyirxah məqsədlər üçün istifadə edilməsi tarixini isə dəqiq söyləmək çox çətindir. Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir.

### Çətənə bitkisinin iki növü var: Sativa və İndika

İndika əsasən keyidici xüsusiyyətə malik olan keyidici və rahatladıcı növüdür. Sativa isə enerji verən tibbdə və sənayedə istifadə olan növüdür. Sativada keyləşdirici xüsusiyyət daha azdır. Yəni narkotik xüsusiyyətə malik olan əsasən İndika növüdür. Nəşə, marixuana və ya el arasında "şey" adlanan növü məhz İndikadır.

Əlbəttə, əsas tibb məqsədi ilə istifadə edilən çətənə bitkisinin keyf verici xüsusiyyəti daha çox yayılır. Beləliklə, narkotik xüsusiyyətləri ortaya çıxır. İndika adətən kağıza bükülərək siqaret kimi çəkilir. Və ya butulka və qəlyan kimi vasitələrlə sinəyə alınır. Nəfəs yolu ilə qəbul etdikdən sonra bütün orqanlar təsiri başlayır. Təxmini 30-60 dəqiqə ərzində bütün bədənə təsir edir.

### Bəs yaxşı qısa müddət ərzində insanda hansı proseslər baş verir?

Beyində sinir sisteminə təsir edir. Neyron hüceyrələrin fəaliyyətini pozur. Bu isə ani baş verən hadisələri daha gec dərk etməyə, daha az reaksiya verməyə, daha gec anlamağa, analiz qabiliyyətinin azalmasına səbəb olur.

Nəşənin tərkibində tetra kannabinoid adlı maddə mövcuddur. Kannabinoid bəzi bitkilərdə heyvanlarda və insanlarda onsuzda təbii var olan bir maddədir. İnsan bədənin də çox mühüm vəzifəsi olan endo kannabinoid sistem bədəndə iştah, ağrı hissi, əhval-ruhiyyə, yaddaşda daxil olmaqla müxtəlif fizioloji proseslərdə iştirak edən resseptor sistemidir. Yəni nəşənin tərkibində olan bu maddə onsuzda bədənimizdə mövcuddur. Ancaq bu kannabinoidlər neyrotransmitlərdir. Yəni bədənimiz bu maddəni ehtiyac və ya lazım olduqda istehsal edir. Nəşədə olan bu maddə bədənimizdə mövcud olduğu üçün bədən bunun kənardan gələn maddə kimi qəbul etmir. Elə zənn edirki özü istehsal edib. Yəni bədinin buna ehtiyac halı yoxdur. Bu maddə bədənə daxil olan kimi xoşbəxtlik hormonu aktivləşir. Ağrı hissi azalır,iştah artır, əzələlərin boşalmasına və daxili bir rahatlıq olmasına səbəb olur. Tibbdə məhz bu xüsusiyyətlərinə görə kimya terapiya görən xərçəng xəstələri üçün müəyyən miqdarda istifadə edilir. Kimyəvi dərmanların istifadə olunan zaman ürəkbulanma hissini götürməsi və ağrıkəsici kimi istifadə edilir.

Mövzu ilə əlaqədar SİA-nın suallarını Sosial işçi eyni zamanda Narkomaniya və Alkoqolizm asılılığı üzrə psixi-sosial mütəxəssis **Mehriban Babeyeva cavablandırıb.**

### - Narkotik maddələrindən istifadə hansı səbəblərdən başlayır?

- Maddə istifadəsi adətən maraq və sınaqdan başlayır. Narkotik qəbulunun əsas səbəbləri, maraq, kənar təzyiq, stress, psixi asılılıq. Ümu-



miyyətlə psixoaktiv maddələrin qəbuluna səbəb olan bir sıra risk faktorları var, bsixoloji amillər, bioloji amillər, sosial amillər, irsi amillər, ailə, şəxsiyyət xüsusiyyətləri.

Sosial və sosial-psixoloji səbəblər: ailə tərkibinin dəyişməsi, natamam ailə, cəmiyyətə zidd ailə, valideynlərin uşaqların maddi vasitələrini istifadəsinə nəzarət etməməsi və s.

Bioloji amillər: İrsiyətində alkoqolizm və psixoaktiv maddə qəbul etmiş valideyinlərin olması, keçirdiyi ağır xəstəliklər, aldığı travmalar, şizofreniya və bu. xəstəliklər



aiddir.

Şəxsi-psixoloji risk amillərinə isə, özünə inamsızlıq, davranış pozuntuları, öz qayğısına qala bilməmək bacarığı, qarşısındakı bir qrup şəxslərə tabe olma və s.

- Narkotik istifadəsinin psixasi haqqında nə deyə bilərsiniz?

- Narkotik vasitələr bir-birindən çox fərqlidir. Ona görə də istifadə olunan maddəyə görə onun psixoloji təsiri də dəyişir.

### - Narkomaniya ilə mübarizədə hansı işlər görülür və görülməlidir?

- Narkomaniya ilə mübarizə uzunmüddətli, çox şaxəli və geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Ümumiyyətlə narkomaniya ağır bir xəstəlikdir. Narkomaniya digər vərdişlərə görə daha təhlükəlidir. Çünki bu proses daima gizli şəraitdə baş verir, nəzarətdən kənar qalır və durmadan artır. Narkotiki satan insanlar hər zaman yeni alıcı axtarışında olurlar. Əsasən də gənc nəsili bu yola çəkirlər. Valideynlər hər zaman övladları ilə ünsiyyətdə olmalıdır. Narkomaniya ilə mübarizədə bütövlükdə, cəmiyyətin , dövlətin, xalqın və hər bir şəxsin fərdi və ya birgə fəaliyyətinə, köməyinə böyük ehtiyacı vardır. Eyni zamanda da narkomaniya ilə bağlı hüquqi tərəfdən işlər görməklə yanaşı eyni zamanda təbliğat işləri görülməlidir. Müalicə mərkəzləri yaradılmalıdır. Bu işə profesional mütəxəssislər cəlb edilməlidir. Məktəblərdə və digər yerlərdə maarifləndirmə işləri aparılmalıdır. Narkomanlığın profilaktikası, müalicəsi və narkomanların normal həyat tərzinə qaytarılması, bu dəhşətli bəlanın yayılmasına təkan verən səbəblərin aradan qaldırılması üçün zəruri olan tədbirlərin həyata keçirilməli, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısının alınmalıdır.

Sonda isə həmsöhbətimiz fikirlərini gənclərə çağırış etməklə tamamlayıb: "Gənclərimizə narkotik maddələrdən və narkotik maddə təbliğ edən şəxslərdən uzaq durmalarını, sağlam və cəmiyyətə yararlı bir şəkildə formalaşmalarını tövsiyə edirəm".

SİA- mövzu ilə əlaqədar **sosialoq Əhməd Qəşəmoğlunun** da fikirlərini öyrənib. Ə.Qəşəmoğlunun sözlərinə görə, dünya ilə müqayisə etsək Azərbaycanda narkomaniya ilə bağlı vəziyyət o qədər də ürəkaçan deyil: "Azərbaycanda narkomaniya ilə bağlı vəziyyət xeyli pisləşib. Başqa ölkələrdə olduğu kimi bizim ölkədədə mübarizə hüquq mühafizə orqanları tərə-



findən həyata keçirilir. Ümumən narkotik maddələrə qarşı dünyada bir zəiflik mövcuddur. Yəni, bütün ölkələr daha kəskin sərt mübarizə apara bilər. Narkotikanın yayılmasında bir qrupun maddi marağı dayanırsa, digər qruplar da daha fərqli maraqlarla narkotik vasitələri yayırlar. Bu dağıdıcı qüvvələr yer üzündə narkotik satışını qızışdırmağda maraqlıdırlar. Ümumiyyətlə, dünyanın hər yerində bu kimi halların olduğundan xəbərdarıq. 44 günlük müharibədən sonra narkotikanın bizim ölkədə daha çox yayılması xeyli suallar doğurdu. Çünki 44 günlük müharibədə bizim igid əsgərlərimiz döyüşərək müharibədə qalibiyyəti bizə gətirdilər. Bu Azərbaycanı istəməyən qüvvələri də qıcıqlandırdı. Ölkədə narkotikanın artması düşmən marağının həyata keçməsi əlaməti kimi görünür. Təkcə narkomaniya deyil eyni zamanda pornoqrafik internet resurslarının çoxalmasını da müşahidə edirik. Əsasən Rus dilli olan bu internet resursları gəncləri təsirə salır və əhalinin ümumi inkişafını zəiflədir və maneə olur. Biz o vaxt tərəqqidən danışa bilərik ki, insanların mənəvi zənginliyi artsın və insanlarda əməyə yaradıcı münasibət formalaşsın. Çox təəssüf ki, narkomaniya və pornoqrafiyanın yayılması fiziki sağlamlığa və mənəvi zənginliyə zərbədir. Hüquq mühafizə orqanları narkomaniyaya qarşı mübarizə aparır. Lakin bu mübarizə arzu olunan dərəcədə olsa narkomaniya bu qədər artmaz. Təkcə hüquq mühafizə orqanları da bu işin öhdəsindən gələ bilməz. Kompleks işlər aparılmalıdır. Maarifləndirmə də paralel şəkildə aparılmalıdır.




Sistemli tədbirlər görülməlidir. Cəmiyyət çox mürəkkəbləşib və həssaslaşıb. Belə halda əvvəlki mübarizə metodları ilə mübarizə aparmaq lazimi effekti vermir. Cəmiyyətimiz xüsusi yanaşma tələb edir. Təklif edirəm hər məhlədə sosial işçi qrup yaradılsın. Sosial işçilər hər ailəni izləyərək profilaktik tədbirlər görsünlər. Həm də lazımı gələrsə adiyyatı qurumları də xəbərdar etsinlər. İndi sosial işçi qrupları hazırlanır.

Universitetlərdə hazırlansa belə sosial işçi qruplarına iş nəzərdə tutulmayıb. İş metodu dəyişilərək, yeni maarifləndirmə işləri aparılmalıdır. Bu sahədə çox ciddi fəaliyyət proqramı hazırlanmalıdır".

"Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısını almaq məqsədilə daxili işlər orqanlarına daxil olan müraciətlərlə bağlı əməliyyat-axtarış, əməliyyat-istintaq və əməliyyat-texniki tədbirlər keçirilir". **Bu sözləri SİA-ya açıqlamasında DİN-in Mətbuat Xidmətinin əməkdaşı Nurlan Əliyev** deyib. Onun sözlərinə görə, hər bir daxil olan müraciət araşdırılaraq qanunvericiliyin tələblərinə uyğun olaraq təmin edilir: "Nəzərinizə çatdıraq ki, 2022-ci ilin ilk 8 ayı ərzində keçirilən tədbirlər nəticəsində ümumi çəkisi 2 ton 740 kiloqram olmaqla 1 ton 296 kiloqram heroin, 1 ton 176 kiloqram marixuana, həmçinin 139 kiloqram tiryək qanunsuz dövriyyədən çıxarılıb. Keçirilən tədbirlərlə cari ilin 8 ayı ərzində 286 kiloqram psixotrop maddə olan metamfetaminin realizə olunmasının qarşısı alınıb. Daxili işlər orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı keçirilən mübarizə tədbirləri nəticəsində ötən ilin analoji dövrü ilə müqayisədə 245 kiloqram narkotik vasitə və 167 kiloqram metamfetamin daha çox aşkar edilərək dövriyyədən çıxarılıb"




**Psixoloq Aytən Ələkbərovanın** sözlərinə görə, narkomaniya sözünün mənası təsir altına düşməkdir: "Narkoman olmaq əslində təsirə düşməklə başlayır. Əvvəl qeyd edim ki, övladımızı təsir altına düşməyə meyilli böyüdürüksə, bunun nəticəsində bu meyillik daha da pisə doğru irəliləyək vəziyyəti çıxılmaz hala salır. İnsan psixologiyası qadağanları pozmaqda maraqlıdır. Maraq dairəsini genişləndirərək həmin zərərli vərdişlərdən istifadə edirlər. İstər narkomaniya, istər içki audəçiliyi psixoloji problemlərdən xəbər verir. Narkomanların çoxunun keçmişinə nəzər yetirsək görərik ki, narkoman bu adla o qədər çağırıldığı üçün artıq özünü vəziyyətdən çıxarda bilmir. Ya da Narkomanların bir çoxu keçmişinin uğursuzluqlarından danışır, artıq "həyatımdan bezdim" kimi ifadələr səsləndirirlər. Başqa vəziyyətdə isə pis qrupa düşdüyü üçün birdəfəlik çəkməklə, daha sonra ikinci dəfə çəkməklə öyrəşir. Yəni, müxtəlif səbəblər var. Hər bir narkomanin özünə məxsus səbəbləri var. Realibitasiya olunduqdan sonra tamamilə qaytarıla bilirsə, bu böyük uğurdur. Narkotikadan azad olan insanların dinə daha çox yönəlir. O artıq zərərli təsirlərdən uzaqlaşaraq, onu həyata bağlayan səbəblərə yönəlir. Müalicə olunmaq istəyən narkomanlar mütəxəssisə müraciət edir, bu mütəxəssis onun temperamentini anlamağa çalışır. Təfəkkürünə lazım olacaq söz terapiyası ilə psixi xüsusiyyətini öyrənirlər. Belə demək, düz deyil ki, ora düşən çıxmır. O zaman o çıxa bilmir ki, artıq onun bədəni məhv olub. Psixikasını öyrəndikdən sonra onu hansı üsulla işləmək lazım olduğunu bilirik".





Nəşə sinəyə alındıqdan sonra 1saat müqqdətində təsiri görsənir ağızda quruluq yaranır, göz bəbəkləri genişlənir, üz qızarır, qan təzyiqi artır, burun və burun kənarları quruyur, nəfəsalmada çətinlik yaranır, gözlərdə qızartı əmələ gəlir, boğazda yanma və öskürək, ürəkbulanma, qusma, ishal baş verir.

İnsanda qısa müddətli vidtrip adlanan bir enerji canlanması olur. İybilmə, dadbilmə, artım hiss edilir. Bu müddətdə insan daha diqqətcil olur. Nəşə istifadəsindən sonra insan rəngləri daha canlı və parlaq görür. Sevinc keyif hissi yaranır. Bu qısa müddətdən sonra badtrip adlanan müddət başlayır. Narahatlıq, daxili sıxıntı, hüzursuzluq hisləri bəyaqki bütün xoşbəxtlik hisləri ilə əvəz olunur. Qavrayış, yaddaş, iradə pozğunluğu yaranır. Belə olduğu halda insanda düşüncə və analiz də lap çox zəifləyir. Zaman və məkan qavrayışları pozulur. İnsanın hərəkət qabiliyyəti zəifləyir. Nəşə bir ay müddətinə qədər insan bədənində qalır. Nəşənin təsiri azaldıqda isə yenidən çəkmək hissi ilə üzləşir. Çünki şəxs özünü yenidən xoşbəxt etmək və yaxşı hiss etmək arzusundadır. Nəşə yağ toxumalarında depolanaraq qaldığı üçün mütləq şəkildə yenidən istifadəsini bədən tələb edir. Agresizlik, yuxusuzluq, rahatsızlıq nəşə istifadəçisini narahat edən hislərdir. Qısa müddətli istifadədə ağciyərləri məhv edir. Uzun müddətli istifadə də beyindəki hücerələrə depomin adlanan hormonu ifraz etmək üçün həyəcan verir. Beyindəki yeni xatirə və anları yaradan hipokanpus hissəsinə təsir edərək məlumatların işləmək prosesinə müdaxilə edir. Ona görə istifadəçilər həmin an düşüncə dərinliyinə qərq olur. Nəşə şəkdiyi müddətdə narkoman daha ağıllı olduğunu düşünür. Eyni zamanda insanları müxtəlif halüsinasyon görməsinə səbəb olur. Məsələn şəxsin tərəddüdləri artır, yanılqıya düşür. Narkotik istifadəçisi nəsə görməsi və ya eşitməsi ilə bağlı yanılqıya düşür. Beyindəki şübhə funksiyası aktivləşir. Uzunmüddətli istifadə şizofreniya xəstəliyini səbəb olur. Nəşə istifadə edən insanlar digər insanlara görə 7 dəfə daha çox şizofreniya xəstəliyinə düçar olur. Uzunmüddətli nəşə istifadəsi paranoiya xəstəliyinə səbəbdir. Ətrafındakı insanların ona zərər verə biləcəyini zənn edir. Bir müddət nəşə çəkən insan sosiallaşmaqdan uzaqlaşır. Şəxs gördüyü işə uzun müddət fokslana bilmir, yeni konsantrasiyanı pozur. İnsan tərəfindən təkrar-təkrar istifadə olunan və dopamin yaradan bir vasitə mütləq aslılıq yaradır. İnsanların hamısı öz iradəsinin güclü olduğuna inanır. Lakin insanlar özlərinin iradəsiz olduğuna heç vaxt qəbul etmirlər. Çünki aslı olmaq zəifliyin göstəricisidir.

**_Qönçə Quliyeva_**

# ...Hə, indi bunların hansına inanasan?



Xatırladaq ki, bir müddət bundan əvvəl, dəqiq desək, avqustun 29-da Rusiya Müdafiə Nazirliyi Ukraynanın Nikolayev və Xerson vilayətlərində hücum cəhdinin iflasa uğradığını bildirmişdi.

Sentyabrın 8-də isə ruslar Nikolayev-Krivoy Roq istiqamətindəki hücumu zamanı Ukrayna ordusunun 200-ə qədər canlı qüvvəsini itirdiyini bildirmişdi.

Bu arada rus saytlarının yazdığına görə, Rusiya Müdafiə Nazirliyi "Mi-8MTV-5" və "Ka-52" helikopterlərinin videosunu dərc edib. Videoda helikopterlərin Ukrayna Silahlı Qüvvələrinin zirehli texnika və infrastrukturunun məhv edilməsi üzrə komandanlığın tapşırıqlarını yerinə yetirməkdə davam etdiyi göstərilir. ...Hə, indi bunların hansına inanasan?

**_Ağasəf Babayev_**

***...Bu arada ABŞ-ın müdafiə naziri Lloyd Ostin Ukrayna qoşunlarının Xarkov və Xersonda "müəyyən irəliləyiş əldə etdiklərini" bəyan edib. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, xəbəri "Reuters" agentliyi yayıb.***



Maraqlıdır ki, Ostin Ukrayna ordusunun Xerson və Xarkovdakı "müəyyən uğurlar"ını ümidverici adlandırıb. Onu da qeyd edək ki, Pentaqonun rəhbəri bunu Praqadakı mətbuat konfransında bildirib.

# Liz Trass - “dəmir ledi”, yoxsa “yumşaq ser”






***Liz Trass - ”dəmir ledi”, yoxsa ”yumşaq ser” Böyük Britaniyanın xarici işlər naziri Liz Trass hakim Mühafizəkarlar Partiyasının yeni lideri oldu. Çərşənbə axşamı Kraliça II Yelizavetanın iştirakı ilə təntənəli prosedurlardan sonra o, Boris Consonu əvəz edərək baş nazir kürsüsünə keçdi. Nəzərə alsaq ki, onun bu vəzifəyə təyin olunma ehtimalı çox yüksək idi.***





Artıq dünya Britaniya Nazirlər Kabinetinin yeni rəhbəri ilə qarşılıqlı əlaqəyə hazırlaşmağa başlayıb. Eyni zamanda, dünya paytaxtlarından gələn səslərdə kiçik bir təşviş hiss olunur. Hətta ABŞ-ın da hesab etdiyi ”ağ-qara təfəkkürlü” siyasətçinin - Liz Trassın Vaşinqtona problemlər yarada biləcəyini istisna etmirlər. Lakin Londonun müttəfiqləri onunla əməkdaşlıqlarının necə olacağı ilə maraqlanırlarsa, Rusiyanın Britaniyanın yeni baş naziri ilə bağlı heç bir illüziyası olmadığına diqqət etməlidirlər. O, özünü xarici işlər naziri kimi mükəmməl göstərib.

Liz Trass baş nazirliyi ilə bağlı eyforiyaya düşsə də, Britaniyanın müttəfiqləri Londonla münasibətlərinin gələcəyindən narahat deyillər. Mühafizəkarlar Partiyasının yeni liderinin seçilməsi ilə bağlı iyulun 11-dən başlayan prosedur nəhayət başa çatıb. Avqust ayı ərzində və sentyabrın 2-dək ölkə daxilində Mühafizəkarlar Partiyanın təxminən 170 min üzvü Boris Consonu keçmiş maliyyə naziri Rişi Sunak və yaxud xarici işlər naziri Liz Trassın əvəzləməsi səbirsizliklə gözlənilirdi.

### Elizabet Trass niyə məşhurdur?

Nəhayət, əksər sorğuların proqnozlaşdırdığı kimi, xanım Trass sentyabrın 5-də Mühafizəkarların lideri oldu. Çərşənbə axşamı o, Britaniya tarixində üçüncü qadın baş nazir olaraq fəaliyyətə başladı. Qalibin elan edilməsi mərasimində məlum olub ki, partiya üzvlərinin 57,4%-dən çoxu (81 mindən çox) Trassa, Sunaka isə 42,6% (60 mindən çox) səs verib. Səsvermədə mühafizəkarların 82,6 faizi iştirak edib. Həm də Liz Trass XXI əsrdə Mühafizəkarlar Partiyasının seçkilərində 60%-lik baryeri keçə bilməyən yeganə lideri oldu. Belə ki, 2019-cu ildə Boris Conson 66,4%, Devid Kemeron 2005-ci ildə 67,6%, İan Dunkan Smit 2001-ci ildə 60,7% səs toplayıb.

”Tarixin ən uzun seçkilərdən və müsahibələrindən birini təşkil etdikləri üçün partiya üzvlərinə təşəkkür etmək istədim”, deyə Liz Trass salondakılarla zarafatından da qalmayıb. Ailəsinə, dostlarına, tərəfdarlarına və rəqiblərinə, xüsusən də Rişi Sunaka təşəkkür edən siyasətçi, kabinetdəki bir çox həmkarlarından fərqli olaraq, vəzifəsini tərk etməli olan baş nazirə də sona qədər kabinetində, iş başında qaldığına görə minnətdarlığını bildirib: ”Boris Consona təşəkkür etmək istəyirəm. Boris, sən Brexitlə bitirdin... Rusiya Federasiyasının prezidenti Vladimir Putinə qarşı çıxdın (sonuncu dəfə Liz Trass son teledebatda cənab Putin haqqında danışarkən ”The Sun”un aparıcısı huşunu itirmişdi). Kiyevdən Karlayla (Şotlandiya ilə sərhəddə yerləşən ingilis şəhəri) qədər sizi müşahidə edirdilər”. Liz Trass keşmiş müdirini tərifləyib və onun kursunu davam etdirəcəyinə eyham vurub.

”Dostlar və həmkarlar, böyük Mühafizəkarlar Partiyasına, yer üzündəki ən böyük siyasi partiyaya rəhbərliyi mənə etibar etdiyiniz üçün təşəkkür edirəm”, deyən yeni liderin çıxışını Birləşmiş Krallıqdan kənarda dinləyən bir çox siyasətçinin narazılıqla gülümsəməsinə səbəb oldu. Əlbəttə, o partiyasını ”yer üzündə ən böyük” hesab edir. ABŞ-ın Respublikaçılar Partiyasını nədənsə Liza nəzərə almır.

### Britaniya mühafizəkarları niyə Liz Trassı dəstəkləyir?

Bununla belə, bu cür iddialılıq Britaniyanın müttəfiqləri və tərəfdaşları arasında narahatlığa səbəb olub. Narahatlıq hətta Londonun əsas müttəfiqi Vaşinqtonda da hiss olunub. Co Baydenin liberal administrasiyası Liz Trass ilə təmasların perspektivlərini nəzərə almasaq Boris Consonla əlaqədə həvəsli deyildi. ”Financial Times” xatırladır ki, 2021-ci ilin sentyabrında Böyük Britaniyanın xarici işlər naziri Liz Trass və ABŞ Dövlət Katibi Entoni Blinken arasında keçirilən ilk danışıqların şahidləri iki diplomat arasındakı dialoqun ”diplomatikdən uzaq” olmasının şahidi oldular.

Beləliklə, xanım Trass 1940-cı illərdə Uinston Çörçill tərəfindən formalaşdırılan Britaniya və ABŞ arasında ”xüsusi münasibət” konsepsiyasını şübhə altına aldı. Onun sözlərinə görə, Londonun Kanada, Yaponiya və Meksika ilə münasibətləri daha ”xüsusi”dir. Adının açıqlanmayan ABŞ rəsmilərinin dediyinə görə, Liz Trass ”nəticələri düşünmədən maksimalist fikirlər” ifadə etməklə ”kobud” danışıb.

”Financial Times” yazır ki, anonim Amerika rəsmilərinin dediyinə görə, ”ağ-qara düşüncə”yə malik olan Britaniya xarici işlər nazirliyinin keçmiş rəhbəri, indiki baş nazir radikalizmi ilə tez-tez ”amerikalı həmkarlarını bezdirirdi”. Hətta Vaşinqton və Londonun eyni fikirdə olduğu Ukrayna böhranında da fikir ayrılıqları yaranırdı.

Ağ Ev ABŞ-ın Moskvada rejim dəyişikliyinə can atmadığını açıqaydın bildirsə də Liz Trass amerikalı həmkarlarından Rusiya Federasiyasına qarşı daha sərt mövqe sərgiləmələrini tələb edib və hətta buna dərhal razı olmadıqlarından narazılıq edib.

Fevralın 24-dən sonra baş verən Ukrayna münaqişəsinin ən təhlükəli epizodlarından biri qismən Liz Trassla bağlıdır. Fevralın 27-də çıxış edən Britaniya Xarici İşlər Nazirliyinin rəhbəri etiraf edib ki, Ukrayna ərazisində hərbi əməliyyatlar Rusiya ilə NATO ölkələri arasında tamhüquqlu münaqişə ilə nəticələnə bilər. Həmin gün Vladimir Putin müdafiə naziri Sergey Şoyqu və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla görüşdə deyib: ”NATO-nun aparıcı ölkələrinin yüksək səviyyəli rəsmiləri ölkəmizə qarşı aqressiv bəyanatlara yol verir, ona görə də mən müdafiə nazirinə və Baş Qərargah rəisinə Rusiya ordusunun xüsusi döyüş növbətçiliyinə keçirməyi əmr etsin. Daha sonra, martın 5-də Rusiya prezidenti izah edib ki, silahlı qüvvələrin yüksək hazırlıq vəziyyətinə gətirilməsinə səbəb Liz Trassın ”NATO-nun münaqişəyə cəlb oluna biləcəyini açıqlayan” sözləri-dir.

### Lizin hekayəsi

Xanım Trassın Fransanın rəhbərliyi ilə münasibətləri yaxşı deyil. Avqustun sonunda prezident Emmanuel Makron vurğulayıb ki, əgər Fransa və Britaniya bir-birinə dost və ya düşmən olduqlarını deyə bilməsələr, hər iki tərəf ”ciddi problemlərlə” üzləşəcək. Buna görə də Beşinci Respublikanın lideri əmin edib ki, Londonda kimin hökmranlığından asılı olmayaraq, Paris həmişə Böyük Britaniyaya dost kimi baxacaq. Onun sözləri Liz Trassın Fransa prezidentinin Britaniya üçün dost və ya düşmən olduğuna hələ qərar vermədiyini bildirdiyi seçki çıxışına cavab olaraq gəlib. Böyük Britaniya Xarici İşlər Nazirliyinin rəhbəri son dərəcə qeyri-diplomatik olaraq qeyd edib ki, cənab Makron ”sözlə deyil, əməllə” mühakimə olunacaq.

Bəli Liz Trass səlahiyyət müddəti başa çatan Boris Consonla Kraliça II Yelizavetanın Şotlandiyanın Balmoral qalasındakı iqamətgahına təhvil-təslim məsələlərini həll etmək üçün gedib. Bu gün Böyük Britaniya yenidən, üçüncü dəfə qadına həvalə edildi. Onun idarəçiliyi, verəcəyi qərarlar ölkəsinin xarici və daxili siyasətini tənzimləyəcək. Bəs, Liz xanım mizan-tərəzisi pozulmuş dünyanın nizama düşməsində faydalı bir iş görə biləcəkmi?

***V.VƏLİYEV***

PERSONA

# DİQQƏT: İcbari Tibbi Sığorta kimlərə şamil edilir?

***"Tibbi sığorta haqqında" Qanuna əsasən (15-2.1.) Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığortaolunan hesab edilir. Heç bir yerdə əmək və ya mülki müqavilə əsasında işləməyən, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan şəxslər də 2024-cü il yanvarın 1-dək icbari tibbi sığorta haqqı ödəməkdən azaddır.***



Onlar İcbari Tibbi Sığortanın Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən dövlət büdcəsinin vəsaiti hesabına istifadə edə bilərlər". Bu sözləri SİA-ya açıqlamasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova deyib.

Onun sözlərinə görə, hazırda vətəndaşlara icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində 3500-dən artıq diaqnozu əhatə edən 2550 sayda tibbi xidmət göstərilir: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) rəsmi internet səhifəsinə (https://its.gov.az/) daxil olaraq, Xidmətlər Zərfi ilə təminata alınan tibbi xidmətlərlə daha ətraflı tanış olmaq mümkündür. Xidmətlər Zərfi üzrə elektron axtarış sistemi vasitəsilə tələb olunan tibbi xidmətin Xidmətlər Zərfində mövcudluğunu yoxlamaq, həmçinin tibbi xidmət müqabilində Agentlik tərəfindən tibb müəssisəsinə ödənilən məbləğ haqqında məlumat almaq olar. Məlumat üçün bildirək ki, vətəndaşlar Poliklinika və Ailə Sağlamlıq Mərkəzləri istisna olmaqla, yaşadıqları və qeydiyyatda olduqları yerdən asılı olmayaraq icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən yararlanmaq üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan istənilən dövlət tibb müəssisəsinə ixtisaslaşdırılmış ambulator yardım üçün (ixtisaslı həkim - kardioloq, uroloq, oftalmoloq, endokrinoloq və s. - müayinəsi) şəxsiyyət vəsiqələrini təqdim etməklə müraciət edə bilərlər. Bu tibb müəssisələrinə rayon və şəhər mərkəzi xəstəxanaları, müalicə-diaqnostika mərkəzləri, birləşmiş şəhər xəstəxanaları, birləşmiş uşaq xəstəxanaları, şəhər klinik xəstəxanaları, vərəm əleyhinə tibb müəssisələri, habelə Kliniki Tibbi Mərkəz, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi və s. tibb müəssisələri aiddir. Qeyd edək ki, Poliklinika və Ailə Sağlamlıq Mərkəzlərinə qeydiyyat üzrə müraciət edilməlidir.

Qeyd edilən tibb müəssisələrində də vətəndaşlar istənilən ixtisaslı həkimin müayinəsindən keçə bilər və Xidmətlər Zərfi ilə təminata alınan tibbi xidmətlərdən ödənişsiz yararlana bilərlər. Vətəndaşa hər hansı tibbi xidmətin göstərilməsi müraciət etdikləri tibb müəssisəsində mümkün olmasa, bu zaman ixtisaslı həkim tərəfindən TƏBİB-in tabeliyindəki digər dövlət tibb müəssisəsinə və ya Agentliyin müqavilə bağladığı 69 özəl tibb müəssisəsindən birinə göndəriş verilə bilər".

Aynurə Əhmədova fikirlərinə davam edərək həmçinin qeyd edib ki, vətəndaş TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisəsi tərəfindən verilən göndəriş vərəqəsi əsasında müqaviləli tibb müəssisəsinə müraciət etdikdə Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən ödənişsiz yararlanır: "Bu halda müvafiq tibbi xidmətin dəyəri müqaviləli tibb müəssisəsinə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ödənilir. Vətəndaş TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisəsi tərəfindən göndəriş vərəqəsi almadan birbaşa müqaviləli tibb müəssisəsinə müraciət edərsə, tibbi xidmətin dəyərini tam həcmdə öz vəsaiti hesabına ödəməlidir. Qeyd edək ki, müqaviləli tibb müəssisələrinin sayı mütəmadi olaraq yenilənir".

***Arzu***

# Unudulmaz Şirvan dayı...



***Bu dünyada elə gözəl qəlbli insanlar var ki, irsi olaraq qohum olmasalar da ətrafındakı insanlar üçün əzizdən də əziz olurlar daima. Öz gözəl əməlləri ilə, xeyirxahlıqları və İNSANLIQLARI ilə. Böyük insan olmaq hər yaradılışa qismət olmur bu dünyada. Böyük insanlar bilirsiniz digərlərindən ən çox hansı cəhətləri ilə fərqlənirlər?- BÖYÜK VƏ XEYİRXAH ÜRƏKLƏRİ İLƏ!.***

Rəhmətlik Şirvan dayım da bu cür insanlardan idi. Onun haqqında yazanda, söz deyəndə zərrəcə qədər tərifə-filana qəti ehtiyac yoxdur. Bu yazını oxuyan hər kəs gözəl bilir ki, bütün cənub zonasında, respublikamızda əsl insanlığı ilə, gözəl əməlləri ilə ad qazanmış Şirvan Əbilov böyükdən kiçiyə hər kəsin ehtiramla yanaşdığı ağsaqqal idi. Sözün əsl mənasında AĞSAQQAL!.

Müdrik və mənalı həyat yaşamış insanlar haqqında yazmaq həm də çox çətindir. Çünki onlar haqqında yazmaq üçün bu insanların keçdikləri həyat yolunun bütün məqamlarını rəssam kimi zərrəsinə qədər təsvir etməli, zərgər kimi bu ömrün bütün dönəmlərini xüsusi "naxışla işləməlisən" ki, heç bir səhvə yol verməyəsən. Axı bu məsələdə, azacıq edə biləcəyin bir səhv, nəhəng bir insanın zəngin həyat yolunu alt-üst edə bilər. Jurnalist qələmi də zərgər aləti kimi ehtiyatlı olmağı tələb edir belə yerdə. Amma köməyimə gələn yenə Şirvan dayımın pak, hamıya şəffaf olan mənalı həyat yoludur. Həyatının hər anında xeyirxah əməlləri ilə zəngin olan bir ömür...

Daima çiyinlərində el yükü çəkən Ş.Əbilov Ulu Öndər Heydər Əliyevin ən etibarlı silahdaşı, ömrünün son gününə qədər bu siyasəti sədaqətlə dəstəkləyən əqidə sahibi idi. Ulu Öndərin sağlığında dəfələrlə onunla görüşmüş, 1992-ci ilin keşməkeşli noyabr günündə, AXC-Müsavat hakimiyyətinin kəsəkəs vaxtında bütün qadağalara baxmayaraq Naxçıvana üz tutan, Yeni Azərbaycan Partiyasının ilk qurultayına qatılan, Ulu Öndərin qarşısında çıxış edən, onun xeyir-duası ilə ictimai-siyasi fəaliyyətə başlayan, Masallıda YAP-ın yaradılmasını təşkil edən Ş.Əbilov ictimai xadim olaraq da yaddaşlarda iz qoyub. Onun o ağır zamanda Naxçıvana üz tutması, ilk əvvəl öz xalqına və Ulu Öndər Heydər Əliyev ideyalarına olan sonsuz sevgisindən qaynaqlanırdı.

Heç bir zaman xalqının, ölkəsinin problemlərinə, həyati əhəmiyyətli məsələlərə biganə qalmazdı. Çox aktiv insan idi. Onunla ilk ünsiyyətimiz də sənətkarlara olan ögey münasibət barəsindəki yazımdan başladı.

Rəhmətlik Qədir Rüstəmov haqqında qəzetdə tənqidi yazım dərc olunmuşdu. Səhər işə gələndə ağsaqqal bir insanın mənə telefonla mənə zəng etdiyini, yazdığım bu yazı ilə əlaqədar mənlə danışmaq istədiyini dedilər. Dəstəyi götürüb danışdım bu nurani və böyük insanla. Şirvan əmi böyük sənətkarlara qarşı laqeyd münasibətdən, efirləri və səhnələri bürüyünən diletant səviyyəli, mədəniyyəti və yaradıcılığı olmayan kəslərin göbələk kimi artmasından elə bərk narahat olmuşdu ki. Mədəniyyətimizin, səhnəmizin, xüsusilə efirlərimizin bu hala düşməsi onu mənəvi olaraq çox narahat edirdi. Səsindəki həyəcan el yükü çəkən bu nurani insanın əsl AĞSAQQAL obrazını canlandırırdı göz önündə...

Şirvan dayı həm də bizim "SƏS" qəzetinin ən yaxın dostlarından sayılırdı. Hələ Ulu Öndər Naxçıvanda olarkən və sonrakı ağır illərdə Ş.Əbilov Bakıdan "SƏS" qəzetinin nüsxələrini götürüb cənub zonasına aparar, Heydər Əliyev ideyalarının, haqq işinin insanlara çatdırılması üçün var qüvvəsi ilə çalışardı. Son illər tez-tez redaksiyamıza gələr, baş redaktor Bəhruz müəllimlə görüşər, qəzetimiz barədə fikirlərini çatdırardı. Bu qədər enerjili, bu qədər vətənsevər, bu qədər ictimai məsuliyyəti olan insan idi Şirvan dayı.

Şirvan dayımda özəlliklə bir məqamı xüsusilə sezirdim: tanıdı-tanımadı hər kəsə ürəyi yanırdı, hər kəsin problemini öz problemi bilib qabağa düşürdü. Həm böyük ÜRƏK, həm də əsl ağsaqqal nümunəsi idi Şirvan dayım. Sənin haqqında heç vaxt keçmişdə danışmaq mümkün deyil əziz dayım. Çünki sağlığında etdiyin xeyirxah əməllərin səni həmişə ürəklərdə əbədi yaşadacaq. Elə bu gün olduğu kimi.

Allah səni qəni-qəni rəhmət eləsin əziz dayım, gözəl əməllərin və nurlu simanla daima qəlbimizdəsən.

***Mətləb Salahov***



# "Qanun layihəsinin yenidən hazırlanması dövrün tələbədir"

"Azərbaycanda "Siyasi partiyalar haqqında" mövcud qanun 30 il bundan əvvəl yəni 1992-ci ildə qəbul edilib. Bu, qanunun yenidən formalaşdırılmasına zəruri edən əsas arqumentlərdən biridir. Bu səbəbdən də Azərbaycanda qeydiyyatdan keçmiş bir çox partiyanın təklifi əsasında Milli Məclisdə məhz "Siyasi partiyalar haqqında" yeni qanunun hazırlanması qərarına gəlinib". Bu sözləri S?A-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, Milli Məclis tərəfindən bu qanun layihəsinin hazırlanması ilə bağlı məlumat iyulun 26-da ictimaiyyətə bildirilib: "Həmin müddətdən sonra ötən dövr ərzində qeydiyyatdan keçmiş bir çox partiya tərəfindən təkliflər də Milli Məclisə göndərilib. Bu da istər-istəməz qanun layihəsinin ictimaiyyətə açıq formada həyata keçirilməsini mümkün edir. Hazırda bu qanunun ilkin versiyası Milli Məclisin saytına yerləşdirilib. Nəzərdə tutulub ki, sentyabrın 28-də ilkin ictimai dinləmələr keçirilsin. İlkin dinləmələr zamanı təbii ki, bir çox maddələr üzrə dəyişikliklərin olması, yeni təkliflərin gündəmə gəlməsi mümkündür və gözlənilləndir. Qanun layihəsini tələsik tənqid etmək, hansısa maddələr üzrə fərqli fikirlər söyləmək doğru olmaz. Bütün siyasi partiyalar öz təkliflərini Milli Məclisə, İşçi Qrupa göndərsələr çox əla olar. Qeydiyyatdan keçmiş 39 siyasi partiya öz təkliflərini verib.

Düşünürəm ki, digər qeydiyyatdan keçmiş partiyalar konkret təkliflərini, iradlarını bildirsələr çox yaxşı olar ki, onların da bu qanun layihəsinin qəbul edilməsində iştirakı mümkünləşərdi. Yeni qanun layihəsinin hazırlanması birinci növbədə qanun layihəsinin 30 il bundan əvvəl hazırlanması ilə əlaqədardır, ikincisi isə daha demokratik və daha çevik bir mexanizmə ehtiyacın olmasıdır. Həmçinin bu qanun layihəsinin hazırlanması zamanı beynəlxalq təcrübə öyrənilib. Biz nəzərə almalıyıq ki, Azərbaycanda islahatlar həyata keçirilir, Milli Məclisin fəaliyyətində də islahatların şahidi olmuşuq və artıq Milli Məclisdə rəhbər vəzifələrdə müxtəlif siyasi partiyaların nümayəndələri təmsil olunur".

Naqif Həmzəyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, yeni qanun layihəsi qəbul edildikdən sonra Azərbaycanda siyasi proseslərdə bütün partiyaların iştirakı daha rahat, daha çevik və daha məhsuldar olacaq: "Bu baxımdan qanun layihəsinin yenidən hazırlanması dövrün tələbədir, bütün siyasi partiyaların, o cümlədən siyasi fəaliyyətlə məşğul olan ekspertlərin öz təkliflərini, iradlarını göndərmələrinə çox böyük ehtiyac var".

***A. Qurbanlı***

# Keyfiyyətli təhsil müasir tədris ocaqlarından başlayır

*Artıq yeni tədris ilinin başlanmasına sayılı günlər qalıb. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ardıcıl həyata keçirilən uğurlu islahatlar, dövlət proqramları təhsili yeni inkişaf dövrünə qədəm qoymasına səbəb olub. Respublikanın ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin bilikli, savadlı böyüməsi üçün təhsil müəssisələrində yaradılan şərait dövlətimizin qüdrətli, dinamik inkişafda olduğunu göstərən amillərdəndir.*




Azərbaycan Prezidenti Cənab İlham Əliyevin xüsusi diqqəti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı nəticəsində həyata keçirilən proqramlar, layihələr təhsildə əldə edilən uğurların sayını artırır.








Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən imzalanmış müvafiq sərəncamlara əsasən, regionlarda modul tipli məktəblər quraşdırılıb, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işləri uğurla həyata keçirilib və bu davam etməkdədir. Bu istiqamətdə həyata keçirilən tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan verir.

### YENİ TƏDRİS İLİNDƏ MÜASİR MƏKTƏB BİNALARI ŞAGİRDLƏRİN İSTİFADƏSİNƏ VERİLİR

Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksi də yaradılan şəraitlə tanış olub. Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksi də müasir standartlara uyğun olaraq tikilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub. 1928-ci ildə inşa edilən təhsil ocağında müxtəlif illərdə təmir-bərpa işləri görülsə də, sıxlıq səbəbindən məktəbin əsaslı şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Məktəbin 790 şagird yerlik binasında 54 sinif otağı olub. Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may, 2021-ci il 8 may, 2022-ci il 27 aprel tarixli sərəncamlarının icrası ilə əlaqədar məktəbin binası əsaslı təmir edilib və köhnə korpus sökülərək yerində yenisi tikilib. Artıq burada 2304 şagirdin təhsil ala bilməsi üçün bütün imkanlar yaradılıb. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir məktəb binası 82 sinif otağından ibarətdir.

Əlbəttə ki, məktəblərin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür. Belə ki, Cənab Prezidentin Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olması məhz təhsilimizə ayrılan diqqətdir. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

1931-ci ildən fəaliyyət göstərən 35 nömrəli tam orta məktəb tamamilə yenidən qurulub, təhsil ocağının 1931-1935-ci illərdə inşa edilmiş köhnə korpusu sökülərək yenidən inşa olunub. Məktəbin 888 şagird yerlik yeni binasında 24 sinif, informatika, əmək, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, yeməkxana və akt zalı yaradılıb. Prezident İlham Əliyev məktəbin yeni binasının çağırışa qədər hərbi hazırlıq otağında, ekosinifdə, biologiya kabinetində, informatika və rəsm otaqlarında, yeməkxanada, əmək otağında və fizika kabinetində yaradılan şəraitlə tanış olub. Müasir məktəblərin tikilərək istifadəyə verilməsi, təhsil müəssisələrində bərpa və yenidənqurma işlərinin ardıcıl xarakter alması da bu prosesin tərkib hissəsidir. Bu strategiyaya Heydər Əliyev Fondu da 2005-ci ildən icra olunan "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramı ilə davamlı şəkildə dəstək verir.

### TƏHSİLƏ AYRILAN PUL GƏLƏCƏYƏ YATIRILAN SƏRMAYƏDİR

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Dövlətimiz bu baxımdan hazırda dünyada lider ölkələrdən biridir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir. Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi layihələri də uğurla davam etdirir. Ümumtəhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir və bu, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlığı ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Bu gün paytaxt Bakı ilə yanaşı, ölkəmizin bölgələrində də müasir tipli təhsil müəssisələri şagrdlərin ixiyarına verilir. Ölkənin bütün regionları kimi Şamaxı, İmişli və digər rayonlarında da yeni tipli məktəblər istifadəyə verilib. Yeni açılan məktəblərdə müasir tədris avadanlıqları ilə təchiz olunmuş sinif otaqları, laboratoriya, kompüter otağı, akt zalı, idman zalı, hərbi hazırlıq otağı və kitabxana var. Görülən işlər deməyə əsas verir ki, təhsil müəssisəsində şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri üçün hərtərəfli yüksək səviyyədə şərait mövcuddur.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb.

**Zümrüd BAYRAMOVA**

# Uşaq və yeniyetmələr sabahın qurucusu, yaradıcısıdır

***Bu günün yeniyetməsi, körpəsi sabahın qurucusu, yaradıcısıdır. Hər bir ölkənin gələcək inkişafı məhz onlardan asılıdır. Odur ki, onların sağlam mühitdə böyüməsi, tərbiyə alması üçün dövlətimiz tərəfindən tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişməsi ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyüməsinə xidmət edir. Təbii ki, yetişən nəslin xalqa bağlı şəkildə böyümələri və formalaşmaları hər bir dövlət üçün prioritet məsələdir.***



Paytaxt Bakıda Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının istifadəyə verilməsi məhz dövlətimiz tərəfindən uşaqlara olan qayğının nümunəsidir. Cari ilin sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib. Vurğulayaq ki, sanatoriyanın yeni binası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən inşa olunub.

1914-cü ildən fəaliyyət göstərən professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyası sağlamlığına qovuşmaq istəyən şəxslərin istifadəsi üçün tam hazır vəziyyətə gətirilib. 300 çarpayılıq beşmərtəbəli sağlamlıq müəssisəsi müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, şüa-diaqnostika, poliklinika, fizioterapiya şöbələri fəaliyyət göstərir. Sanatoriyaya uşaqlar 6 yaşa qədər və 7-17 yaş qrupları üzrə qəbul edilir. Sanatoriyada stasionar şəraitdə müalicə alan uşaqların 11 illik təhsili təşkil olunacaq və beləliklə, onların təhsillərində fasilələr yaranmayacaq.



### AZƏRBAYCAN VƏRƏMLƏ MÜBARİZƏ TƏDBİRLƏRİNİ YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL EDİLƏN ÖLKƏLƏRDƏNDİR

Bildiyimiz kimi, vərəm ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. Buna baxmayaraq, vərəm sağalan xəstəlik olduğundan onun aşkarlanması, müalicəsi və sağalması üçün əhalinin məlumatlılığının artırılması, qlobal epidemiyanın ləğvi və profilaktika üsulları ilə əlaqədar səylər birləşdirilməlidir. Son illər vərəmin diaqnostika və müalicəsində səmərəliliyin artırılması statistikaya da müsbət təsirini göstərib, həm yoluxma, həm də ölüm hallarında azalma müşahidə edilməkdədir.

Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edilən ölkələrdən biridir. Ölkəmizdə də ictimai sağlamlığın əsas məsələlərindən olan vərəmlə mübarizədə dövlət proqramı və Milli Strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunub. Respublikamızda rəsmi qeydiyyata düşən vərəm xəstələrinin müayinəsi və müalicəsi tam dövlət hesabına həyata keçirilir.

### GƏNC NƏSLİN SAĞLAMLIĞININ QORUNMASI MƏQSƏDİ İLƏ TİBBİ XİDMƏTİN KEYFİYYƏTİ YÜKSƏLDİLİR

Cəmiyyətimizin zərif və kövrək nümayəndələri olan uşaqların sağlamlığı üçün də bu gün ölkəmizdə hər cür şərait yaradılıb. Uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri kimi, uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramları hazırlanaraq həyata keçirilib. 2006-2010-cu illəri əhatə edən "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqrammı" çərçivəsində əhəmiyyətli islahatlar aparılıb. 2014-cü il 13 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Sərəncam da gənc nəslin sağlamlığının yüksək səviyyədə qorunmasına xidmət edir. Proqram çərçivəsində respublikamızda ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həmçinin kadr hazırlığının gücləndirilməsi, regionallaşdırma prinsipi əsasında perinatal yardım islahatlarının davam etdirilməsi, doğuşayardım tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, uşaqlara, o cümlədən yenidoğulmuşlara, körpələrə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəliliyi yaxşılaşdırılıb. Zəruri vəzifələrin həyata keçirilməsi davam etdirilir.



### SAĞLAM VƏ LAYİQLİ VƏTƏNDAŞ YETİŞDİRİLİR

Əlbəttə ki, uşaqların sağlam, eləcə də layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır. Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək və bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən etmək məqsədilə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Azərbaycan Prezidentinin 2006-cı il martın 29-da təsdiqlədiyi "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Proqramın məqsədi uşaq müəssisələrindəki uşaqların ailələrə verilməsini təmin etmək və onların həmin müəssisələrə verilməsinə şərait yaradan amilləri aradan qaldırmaqdır.

İstedadlı uşaqların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi də diqqət mərkəzindədir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən 2006-cı ilin aprelində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" təsdiq olunub.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən isə "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)" təsdiqlənib.

Həmin tədbirlərin davamlılığının təmin edilməsində Azərbaycan Prezidenti İlham Əliyevin 2013-cü il 10 dekabr Sərəncamı ilə təsdiq olunmuş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın da əhəmiyyətli rolu var. Bu Dövlət Proqramı uşaqlar arasında xəstələnmənin, habelə sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasında əhəmiyyətli rol oynayıb.

Görülən işlərin davamı olaraq "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanununun tətbiqi haqqında Respublikası Prezidenti Fərmanını da qeyd etməliyik. Qanuna əsasən, uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının minimum keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, saxlanması, daşınması və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə, habelə Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə olan qaydalarına cavab verməlidir.

Qeyd edək ki, bu günə qədər ki, rəsmi dövlət sənədləri əsasında körpələrin və erkən yaşlı uşaqların ana südü ilə qidalanmasının təbliği və müdafiəsinin başlıca istiqamətləri, süni qida məhsullarının istehsalı, idxalı, reklamı və satışına nəzarətin təşkilati-hüquqi əsasları müəyyən edilib, bu sahədə yaranan münasibətlər tənzimlənib. Süni qida məhsullarına dövlət nəzarəti təşkil olunub, uşaqların ana südü ilə qidalanmasının müdafiəsi məqsədi ilə analara maddi, hüquqi, tibbi-sosial təminat verilib.

Uşaqların sağlam həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atılır. Sevindirici haldır ki, ölkəmizdə son illər görülən genişmiqyaslı işlər sırasında ana və uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışı da məhz uşaqların sağlamlığının müdafiəsində mühüm rol oynayır. Bu və ya digər tədbirlər uşaq və yeniyetmələrə olan dövlət qayğısının təzahürüdür.

***Nəzakət ƏLƏD*DİNQIZI***

## Şəhid Əli Quliyevin doğum günündə xatirəsi anılıb

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev və İmişli rayon icra hakimiyyətinin əməkdaşları 9 sentyabr 1984-cü il təvəllüdlü, İmişli rayonunun Otuziki kəndində anadan olmuş, 27 oktyabr 2020-ci ildə Vətən müharibəsində Xocavənd rayonu uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş Xüsusi Təyinatlı Qüvvələrin giziri Əli Tədbir oğlu Quliyevin doğum günü münasibətilə ailəsini ziyarət edib. S?A-nın verdiyi məlumata görə, ziyarət zamanı Səfa Ağayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Əli Quliyevin göstərdiyi şücaətdən söhbət açaraq şəhidlərin hər bir Azərbaycan vətəndaşının qəlbində zirvələr fəth etdiyini və ölməzlik qazandığını qeyd edib.



Daha sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunan Quliyev Əli Tədbir oğlunun məzarı ziyarət edilərək gül dəstələri qoyulmuş, ruhuna dualar oxunub.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Azərbaycandan Ermənistana humanistlik dərsi

## Şarl Mişel 5 erməni hərbçinin qarşı tərəfə təhvil verilməsini alqışlayıb.

***Azərbaycan dövləti həmişə olduğu kimi, 44 günlük Vətən müharibəsində Zəfər qazanarkən də, eləcə də savaşdan sonrakı dönəmdə də humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirib. Son 17 ildə (2003-2020-ci illərdə) İlham Əliyev keçirdiyi bütün görüşlərdə səsləndirdiyi fikirlərlə, sərgilədiyi mövqe ilə bu prinsipə sadiqliyini sübuta yetirdi. Həmçinin beynəlxalq güclərin diqqətini illərlə görməzdən gəldikləri, bölgənin inkişafını əngəlləyən, sülh və sabitliyə təhlükə yaradan Qarabağ probleminə cəlb etdi.***



Lakin Azərbaycanın bu mövqeyindən işğalçı Ermənistan nəticə çıxarmadı. Əksinə, işğal etdiyi Azərbaycan torpaqlarında qanunsuz məskunlaşma siyasəti həyata keçirməklə yanaşı, şəhər və kəndlərimizi yerləyeksan edərək tariximizi, irsimizi silməyə çalışdı. Həmçinin, bu azmış kimi havadarlarına arxalanaraq Azərbaycana qarşı dəfələrlə cəbhə xəttində təxribatlar törətməklə öz çirkin əməllərindən əl çəkmədi. Bütün bunlar isə Azərbaycanın səbr kasasını doldurdu və nəticəsi də işğalçıya çox ağır başa gəldi. Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir Yumruq" siyasəti ilə güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərinin igidliyi ilə Ermənistanı 44 gün ərzində diz çökdürdü. Və məğlub düşmən düşdüyü acınacaqlı durumdan qurtulması, daha çox itki verməməsi üçün Azərbaycan Prezidentindən mərhəmət istədi. Sözsüz ki, Ermənistan rəhbərliyi yaxşı bilirdi ki, Azərbaycan Prezidenti buna "yox" deməyəcək. Ancaq məğlub ölkə bu humanistliyin qarşısında bu gün də sülh danışıqlarından, müqavilənin imzalanmasından yayınır, olmayan "Dağlıq Qarabağ"dan, "status"dan söz açıb müxtəlif iddialar səsləndirirlər. Bu təəccüblü də deyil, çünki Ermənistanın xisləti budur - sözünə, vədinə yalan çıxmaq.



### Azərbaycanını növbəti humanistliyi - 5 erməni hərbçisini qarşı tərəfə təhvil verdi

Azərbaycan yenə də humanistliyini nümayiş etdirərək beş erməni hərbçisini qarşı tərəfə təhvil verib. Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına görə Azərbaycan Respublikası humanizm prinsiplərini rəhbər tutaraq, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə 31 avqust 2022-ci il tarixdə Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə aparılmış müzakirələrin nəticəsində əldə edilmiş ikitərəfli razılaşmaya əsasən, sentyabrın 8-də aşağıda adları qeyd olunan 5 nəfər Ermənistan hərbçisini azad etmiş və Azərbaycan-Ermənistan dövlət sərhədində qarşı tərəfə təhvil vermişdir.

### Aİ Şurasının Prezidenti Şarl Mişel Şarl 5 erməni hərbçinin qarşı tərəfə təhvil verilməsini alqışlayıb

Aİ Şurasının Prezidenti Şarl Mişel Brüsseldəki müzakirələrdən sonra daha 5 erməni hərbçinin Bakı tərəfindən təhvil verilməsini alqışlayıb. Və bildirib ki, həll edilməmiş bütün humanitar məsələləri həlli əsas prioritetdir.Xatırladaq ki, Azərbaycan humanizm prinsiplərini rəhbər tutaraq, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə 31 avqust 2022-ci il tarixdə Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə aparılmış müzakirələrin nəticəsində əldə edilmiş ikitərəfli razılaşmaya əsasən, sentyabrın 8-də 5 nəfər Ermənistan hərbçisini azad edib və Azərbaycan-Ermənistan dövlət sərhədində qarşı tərəfə təhvil verib.

### Toyvo Klaar Azərbaycanın beş erməni hərbçini qarşı tərəfə təhvil verməsini əhəmiyyətli humanitar jest adlandırıb

Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə 31 avqust 2022-ci il tarixdə Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdən sonra Azərbaycanın ötən gün beş erməni hərbçini qarşı tərəfə təhvil verməsini alqışlayıb.Toyvo Klaar bu barədə tviter hesabında yazıb. O, bunu əhəmiyyətli humanitar jest adlandırıb və təhvil-təslim prosesinin vasitəçilər olmadan baş tutmasını diqqətəlayiq sayıb.

Biz həmişə humanizm prinsipinin aliliyini əsas götürmüşük və bundan sonra da işi bu istiqamətdə davam etdirməkniyyətindəyik

Bəli, budur, Azərbaycan Prezidentiinin humanistliyi. "Biz həmişə humanizm prinsipinin aliliyini əsas götürmüşük və bundan sonra da işi bu istiqamətdə davam etdirmək niyyətindəyik. Biz Ermənistan tərəfindən də regionda vəziyyətin daha artıq dərəcədə proqnozlaşdırıla bilən olması üçün şərait yaradılması niyyətini görürük. Mən dəfələrlə demişəm, biz Azərbaycanda Ermənistan ilə çoxillik qarşıdurma səhifəsini çevirmək, normal qarşılıqlı fəaliyyət mərhələsinə başlamaq əzmindəyik və düşünürəm ki, məhz bu formatda öz məqsədlərimizə çatacağıq",-deyən Prezident İlham Əliyev bildirib ki, bundan sonra da işi bu istiqamətdə davam etdirmək niyyətindəyik. Bu, Prezident İlham Əliyevin yürütdüyü müdrik və ardıcıl siyasətin növbəti böyük uğurudur. Dövlət başçısı İlham Əliyevin çıxışlarında səsləndirdiyi "Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur" bəyanatında da bu çağırışlar özünü aydın şəkildə göstərir ki, Ermənistan reallıqları qəbul etməli, bölgə dövlətləri arasında münasibətlər bu reallıqlar əsasında qurulmalıdır və başqa çıxış yolu yoxdur, çıxış yolu Azərbaycanla hesablaşmaqdır və yenə də əgər öz çirkin ənənəsinə sadiq qalarsa, o zaman humanizm yox, "Dəmir yumruq" işə düşmək məcburiyyətində qalacaq.və bu ölkə yenə də acınacaqlı duruma düşəcək.

**RƏFİQƏ HÜSEYNOVA**

## "Ermənistan tərəfinin planları alt-üst olacaq"



"Ermənistan tərəfinin atəşkəs rejimini mütəmadi olaraq pozması konkret olaraq Ermənistanın siyasi planlarından irəli gəlir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, çünki Ermənistan Brüsseldə dörd görüşün keçirilməsinə baxmayaraq yenə də prosesləri uzatmağa və vaxt qazanmağa çalışır: "Təbii ki, bunun da əsas qayəsi Azərbaycana qarşı ərazi iddiası qaldırmaq, xüsusilə status məsələsini qabartmaq, ATƏT-in Minsk Qrupu formatını reallaşdırmaqdır. Dördüncü Brüssel görüşündən sonra atəşkəsin intensiv şəkildə Ermənistan tərəfindən pozulması bunun deməyə əsas verir. Çünki Brüssel görüşündə tərəflər öz üzərinə öhdəliklər götürüb. Göründüyü kimi Nikol Paşinyan erməniləri manipulyasiya edir. Nikol Paşinyan Rusiyada başqa, Brüsseldə başqa, Yerevanda isə tamamilə başqa fikirlər söyləyir. Təbii ki, bu, Azərbaycan üçün heçnəyi dəyişdirmir. Çünki Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Ermənistanın bu kimi planları faktiki olaraq region üçün risklidir. Ermənistan Qərbin siyasi dəstəyini almağına baxmayaraq onun da geopolitik siyasətinə qarşı gəlir. Düşünürəm ki, Ermənistan tərəfi sülh prosesini uzatmağa macal tapmayacaq və planları alt-üst olacaq".

***Arzu Qurbanlı***



# “Rusiyanın mövqeyi dəyişməzdi: Qarabağ Azərbaycandır!"

***Ermənistanın baş naziri Nikol Paşinyan Vladivostokda keçirilən 7-ci Şərq İqtisadi Forumunda Azərbaycanla sülhməramlı gündəm hazırlamağa hazır olduğu barədə bəyanatları fonunda münaqişənin həlli ilə bağlı Azərbaycan ətrafında mənfi informasiya fonu yaratmağa çalışıb.***



Paşinyan, xüsusilə, bunları bildirib: ”Bizim regionumuz üçün də zaman asan deyil, çünki uzun müddətdir mövcud olan çağırışlar getdikcə ağırlaşır... Bu, bütün dünya ictimaiyyətinin, xüsusən də strateji tərəfdaşın diqqətini cəlb edən hazırkı vəziyyətlə bağlıdır. Rusiya diqqətini Ukrayna ətrafındakı vəziyyətə yönəldib. Bu, regionda sabitliyin pozulmasına gətirib çıxara bilər. Oxşar vəziyyət 2020-ci ildə də baş vermişdi. O zaman Azərbaycan pandemiyanın dünyanın diqqətini cəlb etməsindən istifadə edib müharibəyə başladı”, - baş nazir bildirib.

Paşinyan bildirib ki, Qarabağ məsələsi ilə bağlı Azərbaycanla intensiv söhbət gedir və Ermənistan Azərbaycanla danışıqlarda, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya Federasiyasının dəstəyinə ümid edir. Görünür, Paşinyan Qarabağın ”statusu” məsələsinə eyham vurur.

Bütün bunların fonunda Ermənistanın baş naziri əmin edib ki, İrəvan Azərbaycanla sərhədlərin açılmasında maraqlıdır və prosesi Rusiya Federasiyasının dəstəyi ilə başa çatdıracağını gözləyir, çünki Cənubi Qafqazda sabitlik və regionda nəqliyyat kommunikasiyalarını blokdan çıxarmaq da onun maraqlarına uyğundur. Paşinyanın sözlərinə görə, kommunikasiyaların bloklanması üzrə üçtərəfli işçi qrupun fəaliyyətində ”yaxşı irəliləyiş” qeydə alınıb.

Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov Ermənistanın baş nazirinin bəyanatlarını ”Moskva-Bakı” portalına şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

**-Yenə, görünür, biz bir növ ziddiyyət görürük- sülhə hazır olmaq barədə bəyanatlar, eyni zamanda, Azərbaycanın Rusiyanın diqqətinin Ukraynada cəmləşməsindən guya istifadə edib yeni müharibə aça biləcəyinə dair kifayət qədər ört-basdır olmayan eyhamlar...**

- Bunlar Azərbaycan haqqında mənfi imic formalaşdırmaq, bundan həm daxili erməni auditoriyasına, həm də xarici auditoriyaya siyasi təsir alətləri kimi istifadə etmək üçün elə çarəsiz cəhdlərdir.

İrəvanın vəziyyəti özünəməxsus şəkildə şərh etmək və beynəlxalq diqqətin bu proseslərə fırlanması cəhdinə bundan sonra da davam edəcək. Fransa, ABŞ və Aİ artıq bu və ya digər dərəcədə Ermənistana dəstək qrupunda iştirak edir.

Paşinyanın 2020-ci ilin payızı ilə indiki vəziyyət arasında aparmağa çalışdığı paralellər düzgün deyil. 2020-ci ilin payızına qədər Ermənistan ardıcıl olaraq Azərbaycanı hərbi təxribatlara məruz qoydu, konstruktiv danışıqlara getmək istəmədi, nəticədə Azərbaycan təxribatlara cavab olaraq əks əməliyyata başladı. Nəticədə Ermənistan 44 günlük müharibədə uduzdu, Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərinin əksəriyyətini geri qaytardı, Paşinyan Azərbaycan və Rusiya liderləri ilə üçtərəfli bəyanat imzalamağa məcbur oldu.

Bu yaxınlarda ərazilərin daha bir hissəsi Bakının nəzarətinə qaytarıldı - bunlar Laçın şəhəri və Laçın rayonunun 2 kəndidir. Rusiya sülhməramlıları isə Azərbaycan tərəfindən Laçın dəhlizinə alternativ yolun tikintisi başa çatdıqdan sonra dəhlizdən ora köçürülüb. Bütün bu proses liderlərin üçtərəfli bəyanatına uyğun olaraq əldə edilmiş razılaşmalar çərçivəsində həyata keçirilib. Azərbaycanın bütün bəndləri yerinə yetirməsi, ərazilərinin ardıcıl olaraq onlara qaytarılması da nailiyyətdir.



Azərbaycanın indi özünəməxsus olan nəyisə qaytarması faktı - Ermənistanın buna heç bir iddiası ola bilməz, çünki dediyim kimi, bu, üç ölkə liderinin əldə etdiyi razılaşmalara uyğun olaraq baş verir. İddialar ancaq öz tərəfində razılaşmaların icrasını ləngitməyə çalışan Ermənistana qarşı ola bilər. Həmişə olduğu kimi, onu qeyri-konstruktivliyindən yayındırmaq üçün nədənsə Azərbaycanı günahlandırmağa çalışır.

Azərbaycan həm hərəkətlərində, həm də bəyanatlarında ardıcıldır. Amma Ermənistan - yox, o məsələlərdə artıq müzakirə olunub, imzalanıb, onların icrasını yubatmağa, elə etməyə cəhd edir ki, olmasın, gəlin yenidən danışıqlar aparaq. Ancaq problemlərin həlli yolu bu deyil. Bütün gecikmələr və nə vaxtsa təxirə salınması bu gün gördüyümüz nəticələrə gətirib çıxarır. Bundan yalnız Ermənistan uduzacaq. Belə görünür ki, Ermənistanın hazırkı rəhbərliyinin vəzifəsi guya bütün məsələləri tez bir zamanda həll etmək və dinc müsbət tikintiyə - iqtisadi əlaqələrin bərpasına, nəqliyyat logistikasına keçməkdir. Amma bu baş vermir. Amma hər şeyi ləngitmək, yenidən danışıqlar aparmaq cəhdi müsbət nəticə vermir.

Eyni zamanda biz Ermənistanın Qərb tərəfdaşlarını - Fransanı, Aİ-ni Cənubi Qafqazda münasibətlərin normallaşmasına necə fəal şəkildə cəlb etməyə çalışdığını görürük. Fransa açıq şəkildə ermənipərəstdir. Bu da müsbətə gətirib çıxarmır. Bəlkə Paşinyan demək istəyirdi ki, Rusiya Cənubi Qafqazda daha az fəal olduğu halda və həmin vaxt Fransa və ABŞ ora çatmağa çalışır- bəlkə bunu nəzərdə tuturdu? Amma yox. O bunu demək istəmirdi. Və bu həqiqətdir. Üstəlik, Paşinyan bu cür bəyanatlarla yenə də Rusiya ilə Azərbaycanı hansısa səviyyədə yaxınlaşdırmağa, informasiya müstəvisində şübhələr aşılamağa çalışır ki, Azərbaycan nəyə qadirdir. Amma bunların hamısı cəfəngiyyatdır. İrəvan, Moskva və Bakının bu cür toqquşma cəhdləri yeni deyil. Onlar olub və təəssüf ki, olacaqlar.

**- Yaxşı, amma Paşinyan açıq şəkildə hansı ”doldurma”dan istifadə etməyə çalışsa da, Rusiya prezidenti potensialı olan və olmayan haqda hər şeyi bilir, istər qorxut, istər qorxutma... heç bir fərqi yoxdur...**

- Rusiya prezidenti, şübhəsiz, hər şeyi başa düşür və barmağını nəbzində saxlayır. Və təbii ki, belə bir anlayış var ki, Azərbaycan prezidenti sözünün adamıdır. Bir şeylə bağlı razılaşmalar varsa, onlara hörmət ediləcək.

Biz Rusiya və Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında daimi təmasların olduğunu görürük. Rusiya çalışır ki, əldə edilmiş bütün razılaşmalar bütün tərəflər tərəfindən ardıcıl şəkildə həyata keçirilsin. Başqa bir şey odur ki, təxribatlar mümkündür... Heç kim zəmanət vermir ki, olmayacaq. Erməni tərəfdən təxribatçı hərəkətlər gördük. Avqustun əvvəli də daxil olmaqla. Əgər təxribat xarakterli hərəkətlər olarsa, onların cavabı olacaq. Hərəkətlərin ciddi müzakirə olunacağı həqiqətdir. Çünki hər şeydən əvvəl Rusiya təhlükəsizliyin təminatçısıdır, bölgədə rus sülhməramlıları yerləşdirilib, onlar təhlükəsizliyə, o cümlədən dinc əhaliyə cavabdehdirlər.

**- Belə başa düşülür ki, Azərbaycan və Ermənistan sülhə doğru gedir. Üçtərəfli bəyanatın imzalanmasından iki ilə yaxın vaxt keçir. Niyə İrəvan bu cür inyeksiyalar olmadan edə bilmir və öz bəyanatlarında sırf sülhpərvər gündəmə əməl etmir?**

- Paşinyan fəal ictimai siyasətçi rolunu oynayır və onun vəzifəsi informasiya sahəsində çox diqqətli oynamaqdır - erməni müxalifətinin və onun digər opponentlərinin əlinə kozır verməmək üçün o, çıxışında revanşistlərin ritorikasından da istifadə etməlidir. Digər tərəfdən, paralel olaraq Azərbaycanla münasibətlərin normallaşması üçün müəyyən addımlar atır. O, bu dar bucaqla getməyə çalışır. Bu, onun üçün çox çətindir, xüsusən ona görə ki, həm Qərbdən, həm də başqa istiqamətlərdən təzyiq altındadır. Onun vəziyyəti ağırdır və Paşinyan manevr etməyə çalışır. Buna görə də müxtəlif şifahi müdaxilələrdən, aqressiv ritorikadan istifadə edir.

**- Bu vaxta qədər İrəvan Qarabağın ”statusu” ilə bağlı daha çox Fransa və digər Aİ ölkələrinə, eləcə də ABŞ-a müraciət edirdi. İndi görürük ki, Paşinyan ”status” məsələsini həll etmək üçün Moskvaya ümid bəsləyir.**

- Artıq dəfələrlə deyilib ki, ATƏT-in Minsk Qrupu təəssüf ki, öz səmərəsizliyini nümayiş etdirib və nəyisə tənzimləmək iqtidarında olan qurum, mexanizm kimi, prinsipial olaraq qəbul edilmir. Bu formatın mövzusuna qayıtmaq artıq mənasızdır- müharibədən əvvəl olan vəziyyət aradan qalxıb. Yəni bütün bunlar mənasız söhbətlərdir.

Minsk Qrupu təkcə praktiki deyil, həm də hüquqi mənada işləmir. Minsk qrupunun Rusiya təmsilçisi artıq başqa statusa malikdir. Paşinyan Fransanın təsirini gücləndirmək üçün ATƏT-in Minsk qrupunun formatını qaytarmağa çalışır. Görünür, bu, Aİ-də nəzərdə tutulan mövqedir.

Qarabağın statusu birmənalı olaraq müəyyən edilib- Azərbaycan ərazisi kimi. Azərbaycan isə bu məsələni daha da müzakirə etmək niyyətində deyil. Rusiya isə tam eyni nöqteyi-nəzərdən çıxış edir - Qarabağ Azərbaycandır və başqa statusdan söhbət getmir- bu, əvvəlcədən göstərilib.

Qarabağ sakinləri Azərbaycan cəmiyyətinə inteqrasiya edə, özləri üçün mümkün və məqsədəuyğun hesab etsələr, Ermənistana keçə bilərlər. Orada o qədər də böyük əhali qalmadı - hər kəs öz seçimini etməkdə azaddır.

**- Kremlin saytı yazır ki, Putin və Paşinyan şəxsi görüşü zamanı Qarabağ ətrafında təhlükəsizliyin təmin edilməsi məsələsini müzakirə ediblər, bu nə deməkdir?**

- Bu, geniş ifadədir, hər şeyi ifadə edə bilər - Rusiya sülhməramlılarının olması, mülki əhalinin təhlükəsizliyi.

- Sülh müqaviləsinin imzalanması üçün hansı perspektivləri görürsünüz? Sentyabrın 5-də Rusiya və Ermənistan xarici işlər nazirləri Moskvada sülh müqaviləsinin parametrlərini müzakirə ediblər. Bundan əvvəl İlham Əliyev demişdi ki, İrəvanın konstruktiv yanaşması ilə yaxın aylarda sülh müqaviləsi imzalana bilər.

- Bu istiqamətdə prosesə Rusiya da qoşulub. İndi artıq proqnoz vermək çətindir - sərhədin delimitasiyası və demarkasiyası ilə bağlı razılıqların əldə olunacağı gözlənilirdi, lakin bu baş vermədi. Hələlik nəqliyyat və iqtisadi əlaqələrdə, yəni Zəngəzur dəhlizində də real nəticə yoxdur. Ona görə də hələ 2022-ci ilin sonuna qədər sülh müqaviləsinin imzalanacağını söyləmək çətindir. Erməni seqmentindəki mənbələrə istinadən məlumat yayılıb ki, Paşinyan deyib ki, sülh müqaviləsi ilin sonuna qədər imzalanacaq. Bir şans var.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
10 sentyabr
2022-ci il

# Sosial şəbəkələrdə şantaj yolu seçənləri bu cəza gözləyir!

***Onun sözlərinə görə, Cinayət Məcəlləsinə əsasən bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır: "Hər bir törədilən əməl də adekvat olaraq cəzalandırılmalıdır. CM-nin 147.1-ci maddəsinə əsasən, böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma - min manatdan min beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni zamanda ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma - iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***

CM-nin 148-ci maddəsinə əsasən, təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma - min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



Cinayət Məcəlləsinin 148-1-ci maddəsinə əsasən - internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə -min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Turan Abdullazadə fikirlərinə davam edərək bildirib ki, Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə əsasən hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır: "Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Bununla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cəza da nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 156.1-ci maddəsinə əsasən şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi qanunsuz toplanılması min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Şantaj dediyiniz şey isə qanunvericilikdə "hədə-qorxu ilə tələb etmə" cinayətidir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.1-ci maddəsinə əsasən, hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə- üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Hədə-qorxu ilə tələb etmənin üsullarında biri olan zərərçəkmiş şəxs və onun yaxın qohumları haqqında rüsvayedici məlumatlar yayma hədəsində məlumatların həqiqətən rüsvayedici olub-olmamasının, onun həqiqətə uyğun olub olmamasının əhəmiyyəti yoxdur. Başlıcası odur ki, zərərçəkmiş şəxs həmin məlumatları gizli saxlamağa çalışır və onların yayılacağı halda özünün ləkələnəcəyini düşünür. Belə məlumatlara şəxsin intim həyatı ilə bağlı məlumatlar, onun törətdiyi hüquq pozuntusu barədə məlumatlar və sair aid edilə bilər.

Qanunvericiliyin məzmunundan göründüyü şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi qanunsuz toplanılması cinayətdir, həmçinin mülki məsuliyyətə də səbəb ola bilər. Bu əməli törədən şəxslərin təqsiri məhkəmə qaydasında sübuta yetirilərsə onlara qanunvericiliklə müəyyən olunmuş qaydada cəza təyin edilə bilər. Eyni zamanda şəxsi toxunulmazlıq hüququ pozulmuş zərərçəkmiş şəxslərin bu hüququn pozulması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini pozan tərəfdən tələb etmək hüququ vardır.

Bir sıra şəxslərin xüsusi proqramlar vasitəsilə bağlı sosial şəbəkə hesablarına ("WhatsApp", "Instagram", "Facebook" və sair hesablara) daxil olaraq şəxslərin iradəsi ziddinə fotoşəkillərinin, videolarının qanunsuz toplanılması və yayılması qanunvericiliyə ziddir və məsuliyyətə səbəb olan haldır".

***Arzu Qurbanlı***



# Ürək-damar xəstələri, bunlardan uzaq olun!

***"Hazırda kəskin miokardın qarşısı alınır, vaxtında xəstəyə müdaxilə olunur ki, ürək çatışmazlığı yaranmasın. Bundan əlavə, şəkərli diabet geniş yayılıb. Şəkər xəstələrində ağrı simptomları olmadığına görə həmin xəstələr vaxtında həkimə müraciət etmirlər.***

Bu da nəticədə ürək çatışmazlığına gətirib çıxarır. İndiki həyat tərzi çox stress yaradır. İnsanlarda stress risk faktoru olaraq yüksək qan təzyiqinə səbəb olur. Bu da aritmiyalara, miokard infarktına və ürək çatışmazlığına gətirib çıxarır. Ürək qan-damar xəstəliklərinin, miokard infarktının olmaması üçün gün ərzində hər bir insan 5-6 kilometr məsafəni qət etməlidir, pəhrizə fikir verməli, yağlı qidalardan və imkan daxilində stressdən uzaq olmalıdır."



# Ancelina Breddən 250 milyon tələb edir

Hollivud ulduzu Ancelina Coli keçmiş həyat yoldaşı Bred Pitti yenidən məhkəməyə verib. Milli.Az axşam.az-a istinadən xəbər verir ki, Coli keçmiş həyat yoldaşını əvvəllər ortaq olduqları fransız şərab zavodu "Chateau Miraval"ı elə keçirməyə çalışdığını və ona susmaq üçün pay verdiyini iddia edib. Aktrisa qarşı tərəfdən 250 milyon dollar (təxminən 425 milyon manat) tələb edib.

Qeyd edək ki, keçmiş cütlük ərazini 2008-ci ildə 28,4 milyon dollara alıb.

# Leysan yağacaq, dolu düşəcək

Qısa fasilədən sonra sentyabrın 9-da axşam bəzi şərq rayonlarında, sentyabrın 10-dan 11-i axşamadək isə əksər rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var.

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürəti 18-23 metr/saniyə olacaq. Çaylarda suluğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**